

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

№ 230 (7155)

13 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

## Heydər Əliyev fenomeni Sovet dövründə: Azərbaycanın gələcəyi uğrunda mübarizə



3

# Əbədiyaşar LİDER!



2

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

# Hayların başları üstündəki DAMOKL QILINCI



7

## Hikmət Hacıyev: "Ermənistan regionda ən çox mina istehsal edən ölkələrdən biridir"




5

## Həddindən artıq paylaşım xəstəlikdirmi?




12

## Dünya üçün yeni PANDEMİYA TƏHLÜKƏSİ!



16

## Entoni Blinken Əli Kərimlinin yeni ağası ola bilər



13

## Suriya "TORTU"...



6

# Əbədiyaşar LİDER!

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 21 il ötür. AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Azərbaycanın çağdaş tarixində silinməz iz qoymuş Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyətlərdən biridir. Müstəqilliyimizin möhkəmləndirilməsi, milli şüurun inkişafı, iqtisadiyyatın tərəqqisi və ordu quruculuğu Ulu Öndərin hakimiyyətdə olduğu dövrün











əsas nailiyyətləridir. Ötən əsrin 90-cı illərinin əvvəllərində xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider tərəfindən dövlətçiliyin əsasları qoyuldu və genişmiqyaslı islahatlara start verildi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb.

Xalqımız Dahi Şəxsiyyətin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. İyirminci əsrin 90-cı illərində çox çətin dönəm yaşamış Azərbaycan xalqı qurtuluşuna, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu hesab edir. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan izdiham Ulu Öndərin xatirəsinə böyük hörmətin əlamətidir. Xalqımız Heydər Əliyevin azərbaycançılıq ideologiyasına sadiqdir.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, Azərbaycanı bütöv görmək idi. Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev reallığa çevirdi, ölkəmizin ərazi bütövlüyü və suverenliyi hərbi-siyasi yolla bərpa olundu. İndi üçrəngli Dövlət Bayrağımız bütöv Azərbaycanın hər bir guşəsində qürurla dalğalanır. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır.

Görkəmli dövlət xadimi Heydər Əliyev cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırır. Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün vətənimizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib. Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

## Əli Əsədov: "Böyük Qayıdış" proqramı çərçivəsində artıq 2 mindən çox insan Laçın şəhərinə qayıdıb



İşğaldan azad edilmiş Laçın şəhəri bu gün sürətlə bərpa olunur.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın Baş naziri Əli Əsədov MDB Hökumət Başçıları Şurasının iclasında çıxışı zamanı bildirib. Baş nazir xatırladıb ki, Dövlət Başçıları Şurasının bu il oktyabrın 8-də qəbul etdiyi qərara əsasən, Laçın şəhəri 2025-ci ildə Birliyin mədəniyyət paytaxtı elan edilib.

"Möhtəşəm təbiətə və çoxəsrlik tarixə malik olan şəhərdə həyatın bərpasına, iqtisadi rifaha yönəlmiş irimiqyaslı infrastruktur və sosial layihələr sürətlə həyata keçirilir. "Böyük Qayıdış" proqramı çərçivəsində artıq 2 mindən çox insan Laçın şəhərinə qayıdıb, gələn il isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi planlaşdırılır", - deyə Baş nazir qeyd edib.

Əli Əsədov əmin olduğunu bildirib ki, MDB-nin mədəniyyət paytaxtı fəxri statusu Laçın şəhərinə öz mədəni sərvətlərini və müxtəlifliyini layiqincə təqdim etmək imkanı verəcək. O, həmçinin qeyd edib ki, gələn il Azərbaycanda III MDB Oyunları keçiriləcək, Gəncə şəhəri isə Birliyin idman paytaxtı olacaq.

# Heydər Əliyev fenomeni Sovet dövründə: Azərbaycanın gələcəyi uğrunda mübarizə

***Heydər Əliyevin təhsil və əmək karyerası çox zəngin və keşməkeşli olub. Onun təhsil və əmək fəaliyyətinə başlaması ölkənin və dünyanın ən ağır dövrünə- II Dünya Müharibəsi illərinə düşür. 1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsində təhsil alan Heydər Əliyevə təhsilini başa çatdırmağa tezliklə başlanan II Dünya Müharibəsi imkan vermədi. Lakin bu amil ümumilli liderimizə öz xalqının və dünyanın ən böyük şəxsiyyətləri sırasına yüksəlməkdə mane ola bilmədi...***



## DTK generalı erməni təxribatlarının qarşısını necə aldı?

1941-1944-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və MSSR Xalq Komissarları Sovetində müxtəlif məsul vəzifələrdə xidmət edir, 1944-cü ilin mayında isə Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilir. O, 1949-1950-ci illərdə DTK-nın



Leninqrad şəhərində yerləşən Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil alır, 1950-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi vəzifəsinə təyin olunur.

1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirir. 1958-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə isə DTK-nın sədr müavini vəzifəsinə təyin edilir. Heydər Əliyev 1967-ci ildə DTK-nın sədri vəzifəsinə təyin olunur və həmin ildə ona general-mayor rütbəsi verilir.

Heydər Əliyev DTK sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı qətiyyətlə alırdı. Belə ki, o, 1967-ci il iyunun 26-da Azərbaycan KP MK-nın 1-ci katibi Vəli Axundova məktubunda yazırdı ki, iyunun 23-dən 24-nə keçən gecə Xankəndidə bəzi küçələrdə erməni dilində 300 vərəqə yayılmışdır. Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndiyə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar. Həmin ildə təkcə DQMV-də 1200-dən artıq belə vərəqə hazırlanıb yayılmışdı. Qısa müddət ərzində belə vərəqələri hazırlayanlardan 13 nəfər, yayanlardan isə 17 nəfər saxlanılmışdı.

1967-ci ilin əvvəllərində erməni millətçiləri tərəfindən əvvəlcədən hazırlanan plana əsasən Dağlıq Qarabağda milliyyətcə erməni olan şəxs qətlə yetirilmişdi. Planın ikinci mərhələsinə uyğun olaraq xüsusi erməni təhrikçilərinin rəhbərliyi altında kütlə bu ölüm hadisəsi ilə bağlı məhkəmə iclasının keçirildiyi kinoteatrın zalına girərək şübhəli şəxs kimi həmin prosesdə dindirilən 2 azərbaycanlını zorla mühafizəçilərin əlindən alıb xüsusi amansızlıqla öldürmüşdülər. Təqsirləndirilən, lakin sonradan bəraət almış digər azərbaycanlı isə dustaq maşını ilə birlikdə yandırılmışdı. Burada əsas məqsəd hadisələri qızışdırıb milli zəmində qarşıdurma törətmək, nəticədə azərbaycanlıların bütün Qarabağ ərazisindən köçürülməsini və ərazinin Ermənistana birləşdirilməsinin təməlini qoymaq idi. Lakin Azərbaycan təhlükəsizlik orqanlarının, xüsusilə ümummilli liderin çevik müdaxiləsi nəticəsində bu hadisələrin qarşısı qısa müddətdə alınmışdı. İşin istintaqını Heydər Əliyev şəxsən öz nəzarətinə götürmüşdü. Hətta bu məqsədlə Xankəndiyə gedərək 15 gün orada qalmışdı. Nəticədə ermənilərin həmin planı baş tutmamışdı.



## Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərliyinin nəticələri

60-cı illərin sonunda Heydər Əliyevin ömür yolunda yeni, daha geniş, çoxşaxəli, qaynar fəaliyyət dövrü başlanır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumunda 46 yaşlı Heydər Əliyev Azərbaycan KP MK-nın 1-ci katibi seçilərək 1982-ci ilə qədər Azərbaycan SSR-ə rəhbərlik edir.

Bu dövrdə idarəçiliyin möhkəmlənməsi, kadrlara qarşı tələbkarlığın artırılması nəticəsində sosial-iqtisadi, elmi-mədəni sahədə böyük nailiyyətlər əldə edilir.

Həmin illər Sovet Azərbaycanının tarixinə ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi. Əhalinin sosial rifahı xeyli artdı.

1970-1985-ci illərdə, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Bu gün Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, müasir səhiyyə ocaqları, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, yaşıllıq zonaları, istirahət ocaqları, avtomobil və dəmir yolları... Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

## Dünyanın ən böyük dövlətinin rəhbərliyinə yüksəlmiş lider

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsinə təyin edilir və dünyanın ən böyük dövlətinin SSRİ-nin rəhbərlərindən biri kimi tanınır. Azərbaycan xalqı Nəriman Nərimanovdan sonra belə yüksək mərtəbəyə çıxa bilmiş daha bir oğlunu yetişdirmişdi. Yeri gəlmişkən, doğma xalqı, el-obası üçün canını qoyan Nəriman Nərimanovun Bakının ən hündür yerində əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidmətlərindən biri idi. Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan ümumilli lider bir daha sübut etdi ki, o öz xalqının böyük oğullarını heç vaxt unutmur, unutdurmur.

Zaman keçəcək, o, Azərbaycan dövlətinin rəhbəri kimi də dünyada tanınacaq və ölkəsini dünyada tanıdacaqdı. Hələlik isə, SSRİ-nin ən qüdrətli dövrüdür- 70-80-ci illər- və Heydər Əliyev dünya siyasətinə, iqtisadiyyatına təsir edən yüksək postda işini davam etdirir.

*Ardı Səh. 4*

# Heydər Əliyev fenomeni Sovet dövründə: Azərbaycanın gələcəyi uğrunda mübarizə



Əvvəli Səh. 3

Xalq arasında da onun böyük nüfuzu var idi. SSRİ Ali Sovetinin (8, 9, 10 və 11-ci çağırışlar) deputatı, 9-cu çağırış SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini (1974-1979), RSFSR Ali Sovetinin deputatı (XI çağırış, 1985), Azərbaycan SSR Ali Sovetinin (7, 8, 9, 10 və 12-ci çağırışlar) deputatı və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin üzvü (8, 9 və 10-cu çağırışlar) olur.

Heydər Əliyevin SSRİ rəhbəri seçilməsi üçün böyük şansları var idi. Həm əhali arasında, həm də dövlət rəhbərliyində ona inam və etibar böyük idi. Lakin bu vəzifəyə Mixail Qorbaçovun seçilməsi ilə ona qarşı təzyiqlər başlayır. Sov. İKP MK-nın 1987-ci il oktyabr plenumunda Heydər Əliyev Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin 1-ci müavini vəzifəsindən öz ərizəsi ilə istefa verir.

## Ümummilli liderin SSRİ dövründə aldığı bəzi mükafatlar

Ümumilli lider Heydər Əliyevin Sovet dövrü əmək karyerasi boyu bəzi mükafatlara nəzər salmaq onun necə böyük və uğurlu bir əmək fəaliyyəti göstəridiyini əyani sübutudur. Aşağıda mükafatların kiçik bir hissəsi verilib.

"Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı- 1945

"Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı- 1945

"SSRİ Silahlı Qüvvələrinin 30,40, 50 və



60 illiyi yubiley medalları- 1947, 1957, 1967, 1977

"Əmək igidliyinə görə" medalı- 1949

"Döyüş xidmətlərinə görə" medalı- 1954 II dərəcə

"Nümunəvi xidmətə görə" medal- 1959

"DTK-nın fəxri əməkdaşı" nişanı- 1960

"Qırmızı Ulduz" ordeni- 1962

Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı- 1964

I dərəcəli "Nümunəvi xidmətə görə" medalı- 1964

Böyük Vətən müharibəsində qələbənin 20, 30 və 40 illiyi ilə bağlı yubiley medalları- 1965, 1975, 1985

"Sovet milislərinin 50 illiyi" yubiley medalı- 1967

"ÜFK-DTK-nın 50 illiyi" nişanı- 1967

"SSRİ Sərhəd Qoşunlarının 50 illiyi" yubiley nişanı- 1968

"Vladimir İliç Leninin anadan olmasının 100 illiyi münasibətilə" yubiley medalı- 1970

5 dəfə Lenin ordeni (1971, 1973, 1976, 1979, 1983)

İki dəfə Sosialist Əməyi Qəhrəmanı (1979, 1983)

"Oktyabr inqilabı" ordeni- 1982

Sov. İKP MK-nın "Politiçeskoe samoobrazovanie" jurnalı redaksiya heyətinin Fəxri Fərmanı- 1982

"Kiyevin 1500 illik xatirəsinə" medalı- 1982

"Komsomolsk-Amurun 50 illiyi" yubiley nişanı- 1984

ÜİLKGİ MK-nın "60 il V.İ.Leninin adı ilə" fəxri nişanı- 1984

"25 il Patris Lumumba adına Xalqlar Dostluğu Universiteti" medalı- 1985

I dərəcəli Vətən Müharibəsi Ordeni- 1985

"SSRİ Silahlı Qüvvələrinin 70 illiyi" yubiley medalı- 1988

Azərbaycanın gələcəyi uğrunda yorulmaz fəaliyyət

Heydər Əliyev Azərbaycan SSR-ə rəhbərliyi dövründə təhsilin inkişafına xüsusilə böyük əhəmiyyət verirdi. Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, yeni ali və orta ixtisas məktəbləri açılmışdı. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdı.

O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdı.

Elmlər Akademiyasının genişləndirilməsi və inkişafına ümumilli lider xüsusi fikir verirdi. Nəticədə respublikada çox sayda elmi işçilər, böyük alimlər yetişdi. Azərbaycan Sovet Ensiklopediyasının nəşr olunması isə ulu öndərin Azərbaycan elmi qarşısında ən böyük xidmətlərindən idi ki, bu gün də həmin Ensiklopediya ən qiymətli elmi xəzinə sayılır.

SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanda ali hərbi məktəblərin açılması isə milli hərbçi kadrların hazırlanmasında çox böyük bir iş idi. Bu məktəblərdən böyük generallar, hərbi mütəxəssislər yetişdi və onlar 1-ci Qarabağ müharibəsində Azərbaycan Ordusunun özəyini təşkil etdilər.



## Azərbaycanın bütövlüyü uğrunda mübarizə

Heydər Əliyevin Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin 1-ci müavini olduğu dövrdə ermənilərin Azərbaycana qarşı təxribatları və iddiaları baş tutmadı. Yalnız, ümumilli lider Siyasi Bürodan və NS-dəki vəzifədən istefa verdikdən sonra ermənilər fəallaşdılar.

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında Sovet qordusunun Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşayır, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilir. Daha sonra isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri, Azərbaycan Ali Sovetinin sədr müavini seçilir.

SSRİ rəhbərliyində mühüm mövqələrə yiyələnmiş ermənilərin və onlara havadarlıq edən Mixail Qorbaçovun planları nəticəsində Qarabağda münaqişə getdikcə qızışırdı. Dağlıq Qarabağ Muxtar Vilayətində yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, hələ SSRİ-nin dağılmasından və Azərbaycanın müstəqilliyini əldə etməsindən yarım il əvvəl- 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edir.

*Epoxa bitmişdi...*

***Elçin Bayramlı***

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər










Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 21-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

## Hikmət Hacıyev: ”Ermənistan regionda ən çox mina istehsal edən ölkələrdən biridir”

Təəssüflər olsun ki, Ermənistan tərəfindən Azərbaycana qarşı mina terroru siyasəti davam etməkdədir. Çünki 30 illik işğal dövründə bir milyondan artıq mina basdırılıb. Bu azmış kimi, hələ 2020-ci ildən sonrakı dövrdə - Ermənistanla Azərbaycan arasında sülh müqaviləsi üzrə müzakirələr getdiyi dövr ərzində yenə də Ermənistandan Azərbaycan ərazilərinə minaların daşınması proqramları həyata keçirilib.



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə müsahibəsində deyib.

Ermənistanın regionda ən çox mina istehsal edən ölkələrdən biri olduğunu qeyd edən H.Hacıyev fikirlərinə belə davam edib: ”Keçmiş təmas xətti ilə bərabər qondarma rejimin yerləşdiyi ərazinin perimetrləri çərçivəsində də minalanma siyasəti həyata keçirilib. Bunun nəticəsində bu gün də Azərbaycanın mülki insanları mina terrorunun qurbanları olmaqda davam edirlər. Bu məsələdə bilavasitə Ermənistan Respublikası dövlət məsuliyyəti daşıyır. Çünki Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi siyasətin tərkib hissəsi olaraq Azərbaycan əraziləri minalanıb. Ölkəmizin ərazisinin təqribən 12 faizi minalarla çirkləndirilib. Minaların təmizlənməsi böyük zəhmət və böyük maliyyə resursu tələb edir. Amma bundan daha vacibi bu nəticə insan həyatı hesabına başa gəlir. Mina təmizlənməsi işi çox çətin prosesdir. Bir çox hallarda mülki insanlar təsadüfdən və ya müəyyən yanlışlıq nəticəsində minaların qurbanlarına çevrilirlər. Mina, eyni zamanda, Ermənistanın Azərbaycana qarşı məqsədyönlü şəkildə terror və işğal siyasətinin başqa formalarla davam etməsidir. Bu, Azərbaycanın bərpa və quruculuq işlərinin sürətinə mənfi təsir göstərir, mülki insanların təhlükəsiz şəkildə həmin ərazilərə qayıtmasını çətinləşdirir. Ermənistan tərəfinə göstərilmiş təzyiqlər nəticəsində onlar mina xəritələrinin bir qismini versələr də, həmin xəritələr reallıqda yerdəki vəziyyəti əks etdirmir, dəqiqliyi çox aşağı səviyyədədir. Ermənistan o xəritələrin bir çoxunu hələ təhvil verməyib. Versə belə, minaların təmizlənməsi çox ciddi, həyati təhlükə doğuran bir əməliyyatdır”.

H.Hacıyev daha sonra bildirib ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalıdır. Beynəlxalq münasibətlər sistemində belə bir praktikanın olduğunu diqqətə çatdıran Hikmət Hacıyev əlavə edib: ”İşğalçı və təcavüzkar dövlətlərin hərbi quruculuğu, hərbi planları və ordu quruculuğu prosesində müəyyən məhdudiyyətlər həyata keçirilir. Bu məhdudiyyətlər istər İkinci Dünya müharibəsindən sonra, istərsə də İraq-Küveyt müharibəsindən sonra İraqa münasibətdə tətbiq edilib. Ona görə də biz hesab edirik ki, Ermənistanın hərbi quruculuq siyasəti üzərində ciddi məhdudiyyətlər olmalıdır və Ermənistana hücum xarakterli silahları verən ölkələrin ciddi məsuliyyəti məsələsinə də baxılmalıdır”.

# “Bütün bunlara görə də, ABŞ Azərbaycan cəmiyyətində olan-qalan nüfuzunu da itirdi”

### Qərbi Azərbaycan İcması ABŞ Dövlət katibinin və digər rəsmilərinin Azərbaycanın daxili işlərinə kobud müdaxilə cəhdlərini kəskin şəkildə pisləyir

***Qərbi Azərbaycan İcması ABŞ Dövlət katibi Antoni Blinkenin və digər ABŞ rəsmilərinin Azərbaycanın daxili işlərinə artıq tendensiya halını almış kobud müdaxilə cəhdlərini kəskin şəkildə pisləyir. Bu barədə Qərbi Azərbaycan İcmasının yaydığı bəyanatda qeyd edilib.***

Bəyanatda deyilir: ”Təəssüflə vurğulamaq istərdik ki, biz bu illərdə ABŞ-ın Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini, etnik təmizləmə siyasəti həyata keçirməsini, biz Qərbi azərbaycanlıları deportasiya etməsini pislədiyini görmədik. ABŞ rəsmiləri torpaqları işğal edilmiş Azərbaycanın, yüz minlərlə məcburi köçkünün, minlərlə itkin ailəsinin deyil, işğalçı Ermənistanın, Azərbaycan cəmiyyətində heç bir nüfuzu olmayan, rüsvay olmuş bir qrup marginal elementin yanında yer aldı. Vətən müharibəsindən sonra bütün bunların, xüsusilə ölkələrin ərazi bütövlüyü və suverenliyinə münasibətdə ABŞ-ın fərqli yanaşmasının bir daha şahidi olduq. ABŞ-ın dinc yolla öz dədə-baba yurdlarına qayıdış xəttini seçən Qərbi Azərbaycan İcmasının elə həmin Antoni Blinkenə ünvanladığı məktuba heç bir reaksiya vermədiyini, lakin Azərbaycan xalqına qarşı etnik təmizləmə siyasətinin həyata keçirilməsində iştirak edən və bu günün özündə də Ermənistanda Azərbaycanın suverenliyini təhdid edən separatçılara qucaq açdığını, viza verdiyini, ABŞ-ın müxtəlif təsisatlarında çıxış etmək imkanı yaratdığını gördük. Özünü dini azadlıqlara hörmət edən ölkə kimi qələmə verən, ”mötəbər” hesabatlar hazırlayaraq ölkələri müxtəlif uydurma siyahılara daxil edən, Qarabağda ”erməni irsi”nin vəziyyəti ilə bağlı narahatçılığını ifadə edən ABŞ-ın Azərbaycan xalqının Ermənistan ərazisində zəngin mədəni irsinin dağıdılmasını, təhrif edilməsini pislədiyini eşitmədik. Bütün bunlara görə də, ABŞ Azərbaycan cəmiyyətində olan-qalan nüfuzunu da itirdi.

ABŞ ”insan hüquqları” mövzusunu, yalan xəbər mediasını, ”müstəqil” QHT-ləri Azərbaycana qarşı silah kimi istifadə etməkdənsə, qoy, özü ən əsas beynəlxalq insan hüquqları konvensiyalarına qoşulsun, müxtəlif beynəlxalq təşkilatların çoxsaylı hesabatlarında yer almış polis tərəfindən həddindən artıq gücün tətbiq edilməsi, hüquq-mühafizə orqanlarının irqi əsasda məlumatlar toplaması (racial profiling), strukturlaşdırılmış irqçilik kimi praktikalara son qoysun, silah zorakılığı problemini həll etsin, məhbuslara verilən işgəncə hallarını və digər qanunsuz əməlləri araşdırsın”.

# Adı var, özü yoxdur



***Əgər cəmiyyətdə kollektiv şəkildə yaşayırıqsa bir-birimizə hörmət etməli, birgəyaşayış haqqında qaydalara əməl etməliyik. Bəlli etiket qaydaları var ki, ona əməl etmək hər vətəndaşın borcudur. Ümumiyyətlə, etiket qaydaları təməl olaraq ailədə öyrənilsə də, bəzi hallarda internetdən, insanları müşahidə etməklə, soruşmaqla, oxumaqla da mənimsənilə bilər. Yəni, ədəb qaydalarını öyrənməklə və tətbiq etməklə həm öz mədəni davranışımızı qorumuş, həm də cəmiyyətin nizamını qorumağa yardımçı oluruq. Etiket və ədəb qaydalarına riayət etmək, həyatın hər anında başqalarında müsbət fikir formalaşdırır və daha ciddi qəbul edilir.***



PROBLEM

Texnologiya nə qədər inkişaf edisə etsin, hər gün virtual ünsiyyət vasitələri təkmilləşsin, yenə də real ünsiyyətin verdiyi enerjini və səmimiyyəti heç nə əvəz eləmir. Bunun səbəbi isə virtual ünsiyyətdən fərqli olaraq real ünsiyyətin yalnız sözlərlə deyil, bədən dilinin köməyi ilə baş verməsidir. Çünki bəzən ünsiyyət zamanı tərəf müqabilimizin nə dediyini, nəyi demədiyini hərəkətləri və enerjisi sayəsində anlayırıq. Söhbət zamanı etiket qaydalarına əməl etməsi, nəzakətli və ya narahat olması məhz hərəkətləri ilə anlaşılır.

Üz-üzə ünsiyyətdə ən vacib etiket nitqimizi düzgün təşkil etməkdir. Nə tez-tez, nə də yavaş-yavaş danışılmalıdır. Danışıq sürətimizin normal olmasına və sözlərimizin tələffüz zamanı ağzımızdan düzgün çıxmasına diqqət yetirməyimiz bizim maraqlı həmsöhbət olmağımızla yanaşı, həm də, qarşı tərəfə dəyər verdiyimizin sübutudur. Həmçinin həmsöhbətimizlə ünsiyyət zamanı geyim və oturma tərzimiz də bizim ədəb normalarına nə qədər əməl etdiyimizin göstəricisidir.

Məşhur bir misal var, insan geyiminə görə qarşılanır, danışığına görə yola salınır. Bu eynilə dediyimiz vəziyyətdir. Geyimimiz bizim şəxsiyyət vəsiqəmizdir, o bizim ruhən və mənən necə insan olmağımız haqqında qarşı tərəfə mesaj verir. Kollektiv yaşayış qaydalarına əməl etməyin bir yolu da məhz geyim ilə əlaqəlidir. Bizim azadlığımız başqasının azadlığının başladığı yerdə bitir, ona görə də geyimimiz, danışığımız başqalarını narahat etməyəcək tərzdə olmalıdır.

İctimai yerlərdə nəzakət ən çox axtardığımız etiket qaydasıdır. Nəqliyyatda öz yerini başqasına vermək, yolda keçid üstünlüyünü digərinə ötürmək, səkidə gedərkən başqalarına mane olmamaq, piyadalara qarşı sürücü kimi diqqətli olmaq, köməyə ehtiyacı olana yardım etmək bizdən heç nə əskiltməz, əksinə ədəb qaydalarına əməl etməyimizə kömək edər. Başqasının telefonuna boylanmaq, mesajlarını oxumaq, böyüklərin ayaqüstə durduğu yerdə oturmaq ədəbli insanın işi deyil.

Biz təşəkkür etməyi bacarmırıq. Təəssüf ki, bu, belədir. Bizə yer verənə, yol verənə, kömək edənə minnətlə, onun borcu imiş kimi baxırıq. Təşəkkür etmək bizi alçaltmaz. əksinə, təşəkkürü bacaran insanlar müdrik insandır. Biz üzr istəməyi də bacarmırıq. Səhvini qəbul etmək böyüklükdür və təəssüf ki, bu böyüklüyü göstərə biləcək cəsarətdə çox az adam var.

Etiket qaydaları sosial həyatda müxtəlif vəziyyətlərdə riayət edilməli olan müfəssəl qaydalardır. Bu qaydalar həyatı asanlaşdırmağa və münasibətləri tənzimləməyə kömək edir. Yaşadığımız cəmiyyət hamımızındır və biz harada və necə davranmalı olduğumzu bəlli qaydalarla öyrənirik. Doğrudur, bir çox etiket qaydalarına əməl etməməyə görə heç bir hüquqi cəza və hüquqi öhdəlik yoxdur. Siz avtobus ya metroda öz yerinizi daha yaşlı və ya uşaqlı sərnişinə verməyə də bilərsiniz, bunun üçün sizə qanunla heç bir öhdəlik düşmür. Lakin etiket qaydalarına görə daha yaşlı sərnişin, uşaqlı qadın ayaqüstə çətinlik çəkirsə və siz daha gənc və enerjili olaraq oturursunuzsa doğru davranmırsınız. Bir çox hallarda cəmiyyətin bu cür hallarda göstərdiyi stiqma qanundan daha ağır olur. Unutmayın, etiket qaydalarına riayət etmək başqalarına hörmət etməkdir.

İctimai yerlərdə öskürərkən, asqırarkən ağzını bağlamayanlar, ucadan telefonla danışanlar, ən yüksək həddə musiqiyə qulaq asanlar, övladını səkinin kənarına çəkib tualet işini həll edənlər, küçədə dondurma yalayanlar, tum yeyib qabığını qarşıdan gələnin üzünə tüpürənlər, içdiyi suyun qutusunu yola atanlar etiket qaydalarına əməl edərsə yaşadığımız cəmiyyət daha mədəni bir cəmiyyət olmazmı?

Harada olmağından asılı olmayaraq bütün insanlar hörmətə layiqdirlər. Başqalarına hörmət göstərməklə öz mədəniyyətimizi nümayiş etdiririk əslində. "Zəhmət olmasa", "təşəkkür edirəm", "çox sağ olun", "minnətdaram" kimi sözlərin sehrli olduğuna inanın, ən pis əhvalda olan insan belə ona sözlərlə göstərdiyiniz diqqətə görə sevinəcək. Beləliklə, həm öz mədəniyyətinizi qorumuş olacaqsınız, həm də qarşıdakına nə qədər dəyər verdiyinzi göstərəcəksiniz.

***Lalə Mehralı***



MƏTLƏB
*Metlebsalahov@mail.ru*

# Suriya “TORTU"...

## Yenə "sevinən" müsəlmanlar, yenə yıxılan heykəllər, yenə saqqallı "qəhrəmanlar", yenə sərvət müharibəsi...

Yaxın Şərq yenə qaynayır. 61 illik Hafiz və Bəşər Əsəd ata-oğul hakimiyyəti dramatik fəlakətlə sona çatdı. Bu rejimin hakimiyyət acgözlüyü ucbatından milyonlarla suriyalı vətənindən didərgin düşdü, neçə-neçə suriyalı insan nəsli müharibə və aclıqla doğulub eləcə də həyatdan getdilər, minlərlə günahsız körpələr bombardman nəticəsində dağıntıların altında qalıb torpağa qarışdılar. Ötən əsrin 60-70-ci illərində Şərqin ən gözəl ölkəsi sayılan Suriya, daha sonralar B.Əsədin hakimiyyət hərisliyi ucbatından vətəndaş müharibəsinə, qan gölünə və tarixin xarabazarlığına çevrildi. Budur, B.Əsəd tonlarla qızıl və milyard dollarları da özü ilə götürüb Moskvaya sığınıb. Ən dəhşətlisi isə odur ki, bu sülalə rejimi Suriyanı bu gün dünyanın xəritəsindən silinmək risqi ilə üz-üzə qoyub. Artıq azı 5-6 ölkə, terror qrupları ac canavar kimi Suriyanın başının üstünü alıblar.

## Suriyanın "ad günüdür" - TORT üçün hamı novbədədir...

Dünya siyasətinin ƏSL ÜZÜNƏ və acı mənzərəsinə baxın: güclü dövlətlər yeni terror təşkilatları yaradır, onlara bahalı silahlar, bahalı avtomobillər, milyon dollarlar ötürüb hərəkətə gətirirlər. PKK-PDY, əsas da hazırda Suriyada ən güclü silahlı qruplaşma olan və B.Əsədin axırına çıxan "Həyat Təhrir əş-Şam" (HTŞ), lideri də Əbu Muhəmməd əl-Culani. Üstəgəl Rusiya hərbi bazaları, ABŞ, İngiltərə, İsrail, İran da Suriya "tortunda" dilim axtarırlar. Xüsusilə Suriya nefti bölgə və dünya güclərinin ağzını sulandıran əsas məsələdir. Amma təkcə Suriya sərvətləri diqqəti cəlb etmir. Həm də burada daha çox torpaq və mövqe qazanmaq uğrunda amansız mübarizə gedir. Və çox yəqin ki, B.Əsəd rejiminin süqutundan sonra qarşıdakı aylarda bu mübarizə terror qruplaşmalarının əli ilə daha amansız hala çevriləcək. Xüsusilə uzun illərdir B.Əsədin hamisi rolunda çıxış edən Rusiya, artıq bu ailə sülaləsini qoruya bilmədiyi üçün yaxın Şərqdəki mövqelərinin əldən çıxmasına sakitcə tamaşa etməyəcək. Ukraynada Qərblə amansız müharibə aparan Vladimir Putinin Suriyada mütləq bir pay qoparacağı, Yaxın Şərqdəki mövqelərini qaytarmaq üçün planlar hazırlayacağı tamamilə gözləntidir.

Türkiyə isə öz təhlükəsizliyi, xüsusilə ABŞ-ın dəstəyi ilə PKK-PYD terror qruplaşmasının Suriya ərazisində at oynatmasına yol verməmək üçün ciddi addımlar atacaq. Uzun illərdir ki, B.Əsədi müdafiə etmək işində Rusiya ilə yanaşı yol gələn, hazırda Suriya siyasətində fiaskoya uğrayan İran da bölgədəki sonrakı proseslərdə mütləq yer alacaq. İsrail isə bu baş verənlər fonunda daha geniş addımlara artıq start verib. Son məlumatlara görə, İsrail ordusu Suriya ilə bufer zonada yerləşən Hermon dağının qarşı tərəfdəki nöqtəsini ələ keçirib. İsrail Suriya məsələsində hamıdan daha aktiv olacaq. Çünki 1967-ci ildə Suriya ilə qısamüddətli müharibədən sonra Coland təpələrini ələ keçirən İsrail, bu gün daha böyük və geniş planlarla ortadadır. Çox güman ki, rəsmi Təl-Əviv Suriya "tortundan" daha çox yararlanmaq, daha çox torpaq qazanmaq və genişlənmək planlarını işə salacaq. Əlbəttə, yenicə Ağ Evə dönüş etmək istəyən, amma hələ ayağı Vaşiqntondakı prezident otağına dəyməyən Donald Trampın xəbəri olmadan bütün bunların reallaşması mümkünsüz məsələdir. Belə görünür ki, dünya siyasətini yeniden "dizayn etmək" fikrinə düşən milyarder Ağ Ev sahibi, haqqında deyildiyi kimi dünya üçün dinclik, sülh, müharibələrin sonluğunu gətirən adama oxşamır. Əslində baxsan, D.Tramp da dərin dünya güclərinin onun üçün yazılmış ssenarini oynamaq məcburiyyətində qalan siyasi aktyordan başqa bir şey deyil...

Amma nədənsə bütün bəlalar müsəlman ölkələrini tapır. On illiklər boyu yetişdirib padişahlıq taxtına əyləşdirdikləri tiranların əli ilə müsəlman ölkələrinin sərvətlərini sovurub aparan böyük dövlətlər, yolun sonunda bu tiranlara "əlvida" deyib yeni qəhrəmanlar ortaya çıxarırlar. Görünür, dünya siyasətinin bossları yenə müsəlman ölkələri üzərindən laboratoriya kimi istifadə edəcəklər.

Dünya mediasına nəzər yetirirəm, telekanallardakı görüntülərdə B.Əsəd rejiminin süqutuna dəli kimi sevinən, motosikletlərinə və avtomobillərinə Suriya bayrağı taxıb meydanlarda var-gəl edən zavallı suriyalıları görürəm. Sevinirlər ki, babalarının, atalarının, özlərinin və körpə övladlarının gələcəyini məhv edən 61 illik sülalə rejiminə son qoyulub. Amma anlamırlar ki, 61 il ata-oğul hakimiyyətini ayaqda saxlayanlar, Suriyanın sərvətlərini bu rejimin əli ilə sümürənlər indi yeni saqqalı "qəhrəmanlar" ortaya çıxaracaqlar və yenə sümürülən, haqları yeyilən həmin bu sevinən, bayram edən suriyalıların özləri olacaq.

Vaxtı ilə Səddam Hüseynin heykəllərini yıxıb bayram edən, daha sonra ABŞ əsgərlərinin itlərinə yem olan iraqlılar da, Müəmmar Qəddafini diri-diri öldürüb çırtlaq atan, bu gün isə qəbilələrə bölünüb bir-birini qıran liviyalılar da gəldi gözümün qarşısına. Bu gün növbədə Suriyadır. Bu ərəb ölkəsinin başına nə oyunlar açılacaq? Yəqin dünyanı idarə edənlər bunu çoxdan müəyyənləşdiriblər. Lakin ortada olan bir həqiqət var: Öz iyrənc səltənətləri üçün 61 ildə yüz minlərlə suriyalını qanına qəltan edən Əsəd ailəsinin bütün cinayətlərində bu rejimi əl üstündə saxlayan böyük dövlətlərin də ən azı onlar qədər günahı və cinayəti var.Amma ən iyrənci bilirsiniz nədir? Həmin bu dünya gücləri Əsəd rejimi süqut edər - etməz, ac canavar kimi əllərindəki terror qruplarını ortaya salıb bu torpaqlardakı sərvətlər üçün mübarizəyə başlayıblar.

Qərbdən gələn guya Suriyanın gələcək "demokratikləşdirilməsi" barədəki bəyanatlar isə gülünclükdən başqa bir şey deyil. Qərbdəki küçə səfilinə də məlumdur ki, yaxın Şərq ölkələrinin cəmiyyətlərində plüral, azad düşüncə tərzi, sivil inkişafa meyl edən ictimai şüur mövcud deyil. Həmin bu Qərb ölkələrinin cinayətləri sayəsində total düşüncəli, yalnız silah və terror "dilindən" anlayan, yalançı din libasına bürünən, terror üçün din faktorundan savadsızcasına istifadə edən kütlə cəmiyyətləri hakimdir yaxın Şərqdə. İraq, Liviya, Misir, Livan, Tunis - hamısı bir bezin qırağıdırlar. Həmişə də belə olacaq. Əksər suriyalılar məzarlıqda, qalanları da dünyanın dörd yanına didərgin düşüblər, belə bir vaxtda sən kimə hansı "demokratiya" vəd edirsən? Heç zaman heç kimə qismət olmayan yalançı "demokratiya" şüarı...

İndi Suriyada saqqalı "müxalifət" sürüsünün zamanı başlayır. Hər supergüc bir terror təşkilatını salıb Suriyanın canına. Əlbəttə, bu böyük ölkəni bir neçə yerə böləcəklər, bu şübhəsiz belədir. Hamısı toyuq ovuna çıxan ac tülkülər kimi pusquda durublar. Suriyanın "ad günüdür", TORT üçün hamı novbədədir...

# Hayların başları üstündəki DAMOKL QILINCI



Rusiyanın yaxın zamanda Ermənistanla bağlı hansısa "tədbirlər" haqqında bir "qərara gələcəyi" gözlənilləndir. Hayların özlərinin belə Kremlin hansısa "addımlar" atacağı ilə bağlı qorxuları var, çünki rusların məhz Ukrayna və Gürcüstanla "problemlərini" həll etdikdən sonra Ermənistanı da "hədəfə" alacağı ilə bağlı proqnozlar kifayət qədərdir. Rəsmi İrəvan ehtiyat edir ki, "digər istiqamətlərdə" öz məsələlərini həll edən Moskva dərhal Ermənistana qarşı "soyuq silah" tətbiq edə bilər və bu silahın məhz Damokl qılıncı kimi hər an hayların başının üstündə olduğunu Paşinyanın hakimiyyət komandası belə çox yaxşı başa düşür və həmin durumu qəbul da etdiyinə görə, hətta buna, bu vəziyyətə çoxdan alışqandır.

## Rusiyanın öz "qılıncını" itiləyib hazır vəziyyətə gətirməsi bəzi məqamlardan xəbər verir

Çox güman ki, Rusiya prezidenti Vladimir Putin ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın xüsusi elçisi olan Keyt Kelloqun Ukraynadakı müharibəni həll etmək barədə bu yaxınlarda təklif etdiyi "sülh planını" rədd edəcək. Çünki Qərbin bir-birinin ardınca ortaya atdığı sanksiyaları fonunda hansısa "yüngülvari" təklifin qəbul olunması, özü də Putin tərəfindən hansısa "güzəşt" qətiyyən heç ağıla da gələn deyil. Bunu amerikalılar da yaxşı bilirlər. Bilirlər ki, Rusiyanın istədiyi şəkildə şərtlər olmasa, hansısa "razılaşma", yaxud da hansısa "təklif" heç hesaba belə alınmayacaq. Deməli, Rusiyanı "razı" salacaq təkliflərlə çıxış etmək və məsələnin həlli barədə təklif edərkən Kremlin istəyi də nəzərə alınmalıdır. Əks halda, Moskva ilə ümumi bir razılığa gəlinəcəyi absurd görünür. Lakin Tramp da öz növbəsində Ukrayna məsələsinin hansısa yolla həll edəcəyini lap əvvəldən bəyan etdiyi, hətta söz verdiyi üçün amerikalıların güzəştə gedəcəyi, ruslarla "ümumi dil tapacağı" ehtimalı böyükdür. Bu isə onu deməyə əsas verir ki, Rusiya yaxın zamanda istədiyinə nail ola bilər və Ukrayna məsələsi ilə bağlı tamamilə "rahat" da ola biləcək.

Həmçinin, Gürcüstan məsələsində də rusların öz mövqelərini, eləcə də gürcülərin öz milli mənafelərini müdafiə etmələri, iradələrini nümayiş etdirmələri fonunda da Qərb artıq həmin Cənubi Qafqaz ölkəsində də Moskva ilə razılaşmaq məcburiyyətində qalırsa, deməli, yaxın zamanda Rusiya elə Gürcüstandan da "arxayın" olacaq. Bu isə o deməkdir ki, Kreml üçün yeni bir "cəbhə" açmaq şansı yaranacaq və hər halda həmin cəbhə məhz Cənubi Qafqaz bölgəsində açıla bilər, çünki rusların çoxdandır bölgə ilə bağlı "narahatlıqları" var və bunun qarşısını almaq üçün "tədbirlər" görülməsi labüd hesab olunmaqdadır. Həmin tədbirləri də Rusiya artıq çoxdandır onsuz da daxilində qarışıqlıq olan Gürcüstanda, yaxud da əməkdaşlığını, əlaqələrini, münasibətlərini davamlı şəkildə genişləndirdiyi Azərbaycanda görmək istəməz və yenə də məntiqi olaraq belə çıxır ki, hədəfdə Ermənistandır. Yəni, artıq rusların öz "qılıncını" itiləyib hazır vəziyyətə gətirmələri və onların başları üzərində hərləmələri ilə bağlı ermənilər dırnaq arasında desək, "xatircəm" ola bilərlər. Elə buna görə də Damokl qılıncı kimi başlarına enəcək qılıncı haylar artıq məhz öz başlarının üzərində hiss etməkdədirlər və yuxularının ərşə çəkilməsi də, bir çox erməni politoloqların, siyasətçilərin həyəcan təbili çalmaları da elə məhz bu səbəbdəndir.

## ABŞ belə öz hesabını gedirsə, bu, hayların başının üstündə "iti bir qılınc" hərləndiyini göstərir

Rusiyalı siyasətçilər özləri də belə hesab edirlər ki, Tramp yalnız Yaxın Şərqdəki müharibələr və Rusiyanın Çinlə artan ittifaqı da daxil olmaqla, digər qlobal münaqişələri müzakirə etməyə razılıq verərsə və Ukraynanı Kremlin əsas maraqlarının bir hissəsi kimi tanıyarsa, Moskva razılığı yalnız bu halda "davamlı" hesab edə bilər. Əgər siyasətçilər, politoloqlar belə bir qənaətdədirlərsə, deməli, bununla bağlı ABŞ da öz hesabını gedir. Bəlkə də çoxları düşünə bilərlər ki, rəsmi Vaşinqtonun mövqeyinin, yaxud da qərarının bura nə dəxli var və bunu ermənilər özləri də ağıllarına da gətirirlərsə, səhv edirlər. Daha dəqiq desək, bu məsələnin Ermənistanla birbaşa əlaqəsi olmadığına inanan kəslər, xüsusən də haylar dərindən yanılmaqdadırlar.

Əvvəla, sürətlə qloballaşan dünyada elə bir ölkə yoxdur ki, planetimizdə baş verən proseslərdən özünü təcrid etmək "itiqadında" ola bilsin və hayların da hayastanı xüsusi bir "imtiyazlı" ölkə qətiyyən deyil. Üstəlik, əgər söhbət Rusiyanın "tarixi təsir zonası" hesab etdiyi ölkədən gedirsə, deməli, indi ermənilər ilk növbədə öz başlarını qorumaq barədə düşünmək məcburiyyətindədirlər. Çünki Rusiyanın "həmləsi" ermənilərin "baş ağrısı" ola bilər. Xüsusən də nəzərə alsaq ki, Moskvanın məhz Ermənistanda vəziyyəti gərginləşdirmək, aranı qarışdırmaq üçün öz rıçaqları var və bunlar kifayət qədər çoxdur, deməli, hayların başları üzərində qılınc, məhz elə həmin o Damokrl qılıncı artıq görünməkdədir. Bəlkə də artıq həmin o qılınc öz işini görməyə başlayıb və bu, məhz Paşinyanın qırxılmış üzündə də özünü göstərir. Yəqin ki, həmin o erməni baş nazir başı üzərində "nə isə" hiss edib deyə, üz-gözünü qırxıb aradan çıxmağa, yaxud da özünü məhz dəyişikliklər edən adam kimi göstərməyə çalışır. "İti su aparmaz", zərb məsəlində deyildiyi kimi, belə bir avantürist əvvəlcədən öz "hazırlığını" görür ki, hadisələr burulğanında qərq olmasın və elə bu məqam özü də hayların başları üstündə "iti bir qılınc" olduğunu göstərir.

## Rusiyanın öz hərbi xərclərini artırması, ortada "planlar" olduğunu təsdiq edir

Rusiya ilə bağlı da bəzi məqamlar diqqəti cəlb etməyə bilməz və bu məqamların özləri də deyilənləri təsdiq edir. Məsələn, gələn il Rusiyanın öz hərbi xərclərini cari illə müqayisədə 27% artırmaq niyyətində olması heç də təsadüfi sayılmır. Bu rəqəmlərlə bağlı məlumat sıradan bir informasiya da deyil. Beləki, bu barədə "Bloomberg" agentliyi 2025-2027-ci illər üçün federal büdcə layihəsini araşdıraraq qeyd edib. Xüsusən də qeyd edilib ki, müdafiə sektoru ilə bağlı xərclər 13,2 trilyon rubl təşkil etməlidir. Müqaisə üçün diqqətə çatdıraq ki, qonşu ölkənin bu il müdafiə büdcəsi 10,4 trilyon olub. Deməli, təqribən üçdə biri qədər də artım nəzərdə tutulub və bunun da səbəbsiz olmadığı gün kimi aydındır. Hər halda, hərbi xərclərini Rusiya səbbəbsiz yerə artırmaz və bu ilk növbədə, ortada "planlar" olduğunu təsdiq edir. Həmin planların da ən öndə olanının, əlbəttə ki, Cənubi Qafqazla bağlı olması zərrə qədər də şübhə doğura bilməz və hər halda, büdcə xərclərini artırmağı, yəni, qılıncını itiləməyi ruslar "lazımlı" hesab edirləmiş. Yəqin ki, həmin qılıncı hardasa "sınaqdan keçirmək" niyyəti var.

Sözügedən nəşrin araşdırmasına və informasiyasına görə, qeyd olunan xərclər Rusiyanın bütövlükdə ÜDM-nin 6,2%-ni təşkil edir. Ümumilikdə, milli müdafiə və daxili təhlükəsizlik xərcləri ölkənin 2025-ci il üçün ümumi büdcəsinin təxminən 40%-ni təşkil edəcək ki, bu da təsadüfi ola bilməz. Diqqətə çatdıraq ki, həmin xərclər təhsil, səhiyyə, sosial xidmətlər və milli iqtisadiyyat üçün nəzərdə tutulan bütün vəsaitlərin cəmindən də çoxdur və deməli, ortada hansısa "ssenari" artıq hazırdır və qalıb onun tətbiq edilməsi. Onsuz da Rusiya müharibəni özünün əsas dövlət prioriteti etməklə, dünyanı qorxu və qeyri-müəyyənlik mühitinə salmaq ənənəsindən əl çəkən deyil. Bunun fonunda da elə haylar qorxuya düşüblər. Çünki başa düşürlər ki, Rusiya ilə Qərb arasında qəfil manevr cəhdləri ola bilər və bu onlar üçün fəlakətlə nəticələnə, faciəvi şəkildə başa çata bilər. Bir tərəfdən də nəzərə alsaq ki, Rusiyanın Ermənistana təzyiq rıçaqlarının sayı həddən artıq çoxdur, deməli, hayların "hayastanı" açıq-aşkar şəkildə, özü də istənilən anda dəhşətli bəlalara sürüklənə bilər. Məhz elə hayların özlərinə də Damokl qılıncı kimi görünən həmin o rıçaqlar istənilən anda "işə salına" bilirsə, deməli, düz başlarının üzərində də hərlənir...

## Ermənistan hələ də asılı vəziyyətdə olan ölkədir və həmin ölkəni istənilən anda "silkələmək" heç də çətin deyil

ABŞ və Aİ olanları çox "canfəşanlıqla" qəbul edir. Kremlin də məhz öz "himayəsində olanlara" kömək etmək istəklərinin çox da böyük olmadığı özünü hər dəfə göstərir. Ələlxüsus da Moskva nəzərə alır ki, açıq şəkildə, tələsik və özü də "yöndəmsiz" davranmaq ancaq zərər vəd edə bilər. Bununla belə, Rusiya qətiyyən yerli geosiyasi məğlubiyyətlə razılaşa da bilməz. Rusiya üçün bütün Cənubi Qafqaz olduqca önəmlidir. Ən böyük sual doğuran əlbəttə ki, Gürcüstanda hər şey yoluna düşəndən sonra Rusiyanın kiminlə qarşıdurmaya yol verməsi məsələsidir. İndi haylar daha çox qorxuya ona görə düşüblər ki, məhz Gürcüstan məsələsindən sonra Kreml üçün hansı ölkə ilə qarşıdurmaya girəcəyi indidən bəllidir və bu ölkə həqiqətən də Ermənistan hesab olunur. Hər halda, görünən kəndə bələdçi lazım olmadığı kimi, hər şey göz qabağındadır, deyə belə bir qorxu ermənilərin yuxularını ərşə çəkib.

Artıq ermənilər çoxdan qəbul ediblər ki, Rusiyanın Azərbaycanla münasibətləri tamamilə fərqlidir. Ümumiyyətlə, haylar bilirlər ki, Kremlin rəsmi Bakıya münasibətini İrəvana olan münasibəti ilə müqaisə belə etmək olmaz. Yaxşı başa düşürlər ki, Azərbaycan Rusiyanın maraq göstərdiyi, əməkdaşlığını isə daha da genişləndirməyə çalışdığı ölkədir. Azərbaycanın indi nəinki Ermənisyanla, ümumiyyətlə, Cənubi Qafqazın heç bir ölkəsi ilə eyni vəziyyətdə olmadığını təkcə ruslar yox, elə ermənilər də etiraf edirlər. Məhz buna görə də Rusiyanın qılıncını haylar ancaq öz başlarının üstündə hiss edirlər.

Haylar onu da bilirlər ki, Azərbaycan artıq bölgədə yeni reallıqlar yaradan ölkədir və özünün milli maraqlarını müdafiə etməyə də qadirdir. Bilirlər ki, Azərbaycan təkcə regionda deyil, bütövlükdə dünyada belə artıq söz sahibidir və hesablaşılan ölkə olaraq qəbul edilməkdədir. Yaxşı başa düşürlər ki, istər siyasi, istərsə də iqtisadi baxımdan Azərbaycan heç bir ölkədən asılı deyil və bizim ölkəmizə qarşı hansısa təsir imkanları ümumiyyətlə, yox dərəcəsindədir. Amma onu da başa düşürlər ki, bütün bu sadalananları Ermənistan barədə demək mümkün deyil. Çünki həmişə olduğu kimi, Ermənistan yenə də asılı vəziyyətdə olan ölkədir və həmin ölkəni istənilən anda "silkələmək" heç də çətin deyil. Onsuz da Ermənistan üçün indi kiçik bir "qığılcım" belə kifayətdir və bunun da dəhşətli fəlakətlərə səbəb ola biləcəyi və bu "qığılcımın" məhz Rusiyanın "əli" ilə yaradılacağı qorxusu da hayların kürkünə birə salıb, çünki bunu da öz başları üzərində məhz bir qılınc kimi görürlər...

***İnam Hacıyev***

# İrəvanın yetirmələri



Zəngin tarixə və ədəbi irsə malik şəhərlərindən olan İrəvan ədəbi-fəlsəfi fikrimizin inkişafında da böyük rol oynayıb. İrəvan Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri kimi tanınmışdır. Bura məşhur şairlər, nasirlər, elm və mədəniyyət xadimləri yetişdirmişdir. XIX əsrin əvvəlində rus qoşunlarının şəhəri işğalından sonra qiymətli əlyazmaların böyük əksəriyyəti məhv edilmişdir. Əsasən məscidlərdə və mədrəsələrdə saxlanılan qiymətli əlyazmaların əksəriyyəti yandırılmışdır. İrəvan xanlığının ərazisində yeganə işlək dil Azərbaycan türkcəsi olmuşdur. Mənbələrdə göstərilir ki, İrəvan və Naxçıvan xanlıqlarının ərazisində 1829-1831-ci illərdə kameral siyahıyaalma keçirən rus tarixçi-statist İ.Şopen "tatar dilinin" - yəni Azərbaycan dilinin yayılma arealı haqqında belə qənaətə gəlmişdir: "Bu məşhur dil haqqında bir neçə söz deməmək mümkün deyildir, hansı ki, Adriatik dənizindən tutmuş, Sakit, Hind və Atlantik okeanlarının sahillərinədək, Qədim Dünyanın üçdəbir hissəsində milyonlarla xalqlar bu dildə anlaşırlar". Böyük rus şairi M.Y.Lermontov Qafqazı gəzdikdən sonra bu qənaətə gəlmişdi: "Tatar dilini (yəni Azərbaycan dilini) öyrənməyə başlamışam, fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada və ümumiyyətlə Asiyada zəruridir". Görkəmli alim Səməd Sərdariniyanın "İrəvan müsəlman sakinli şəhər olmuşdur" kitabında tarixi Azərbaycan torpaqlarında süni surətdə bir erməni dövləti qurulduğu, yüzilliklər boyu Azərbaycan şəhəri olan İrəvanın necə Ermənistan Respublikasının paytaxtına çevrildiyi tarixi-elmi faktlarla əksini tapır.

Elm və mədəniyyət tariximizə "İrəvani" təxəllüsü ilə daxil olmuş bir çox alim, ədəbiyyat və mədəniyyət xadimi bu xəzinəyə önəmli töhfələrini veriblər. Mirzə Qədim İrəvani, Fazil İrəvani, Balağa İrəvani, Mirzə Müslüm İrəvani, Aşub İrəvani, Mirzə Məhəmməd İrəvani, Dəlil İrəvani, Əbdülkərim İrəvani və başqaları bu sırada adlarını qeyd etmək olar. Çar Rusiyası dövründə İrəvan ədəbi-mədəni irsinin inkişafında Firudin bəy Köçərli, İsmayıl bəy Şəfibəyov, Eynəli bəy Sultanov kimi qabaqcıl fikirli ziyalıların əvəsiz rolu olmuşdur. Müxtəlif vaxtlarda İrəvanda olmuş səyyahlar, salnaməçilər, tədqiqatçılar İrəvan şəhərini Şərqin inkişaf etmiş elm və mədəniyyət mərkəzi kimi təsvir etmişlər.

Bu gün İrəvan mühitinin yetirdiyi ziyalılardan söhbət açacağıq. Onlardan biri, Teymur xan Makinski haqqında. Teymur xan Məhəmmədqulu xan oğlu Makinski 1874-cü ildə İrəvan şəhərində anadan olmuşdur. İrəvanda yaşayan Maku xanlarının törəmələrindən olan Makinskilər nəsli İrəvan xanlarının nəsil davamçıları İrəvanskilərlə yaxın qohum idilər. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Teymur xan Makinski İrəvan gimnaziyasını, sonra isə Varşava Universitetinin hüquq fakültəsini 1916-cı ildə birinci dərəcəli diploma bitirmişdir. Teymur xan Makinski XX əsrin əvvəlində Azərbaycanda milli azadlıq hərəkatının fəal iştirakçılarından biri olmuşdur. İctimai-siyasi xadim Teymur xan Makinski Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının, Zaqafqaziya Federasiyasının süqutundan sonra isə Azərbaycan Milli Şurasının üzvü olmuşdur.

Milli Şuranın 19 noyabr 1918-ci il tarixli "Azərbaycan Məclisi-Məbusanının (Parlamentinin) təsisi haqqında qanun"una əsasən, seçkisiz Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin tərkibinə daxil edilmişdir. T.Makinski 1918 ilin iyun-oktyabr aylarında Azərbaycan hökuməti ədliyyə nazirinin müavini, oktyabrın 20-dən dekabrın sonunadək Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında da diplomatik nümayəndəsi olmuşdur. O, İrəvan quberniyasında yaşayan azərbaycanlıları erməni zülmündən qorunması məqsədilə 1919-cu ilin yanvarında Bakıda təsis edilmiş İrəvan Quberniyası Həmyerliləri Cəmiyyətinin idarə heyətinin sədri seçilmişdir.

Teymur xan Makinski 1918-ci il dekabrın 26-dan 1919-cu il martın 14-ə qədər Fətəli xan Xoyskinin 3-cü hökumət kabinəsində ədliyyə naziri vəzifəsini icra etmişdir. O, 1919-cu ilin iyunundan 1920-ci ilin yanvarına qədər Azərbaycan hərbi məhkəməsinin sədri, 1920-ci ilin martından isə yenidən Azərbaycan Xalq Cümhuriyyətinin Ermənistan hökuməti yanında diplomatik nümayəndəsi olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra 1920-ci il mayın 15-də İrəvandakı diplomatik nümayəndəliyin fəaliyyəti Ermənistan hökuməti tərəfindən dayandırılmışdır. Diplomatik nümayəndəliyin başçısı olduğu zaman Zəngibasarda yaşayan soydaşlarımıza maddi yardım göstərdiyinə görə, T.Makinskiyə qarşı Ermənistan prokurorluğu tərəfindən cinayət işi açılmış, lakin o, Gürcüstanın İrəvandakı daimi nümayəndəliyinin yardımı ilə İrəvanı gizlicə tərk edərək mayın 28-də Tiflisə qayıda bilmişdi. Təəssüf ki, Teymur bəy Makinskinin sonrakı taleyi haqqında məlumat yoxdur. Mənbələrdə göstərilir ki, XIX əsrin əvvəllərində İrəvan xanlığının Rusiya qoşunları tərəfindən işğalından sonra İrəvanın imkanlı və ziyalı elitasının xeyli bir qismi şəhəri tərk etmişdir. Tarixin müxtəlif dönəmlərində dövrünün tanınmış simaları soyqırıma və deportasiyaya məruz qalmış, dünyanın bir sıra ölkələrinə - Şimali Azərbaycan, Türkiyə, Orta Asiya, İran, Rusiya və digər ölkələrə üz tutmuşdular. İrəvan, dövrünün mədəniyyət mərkəzi olmuşdur. İrəvanda yaşayıb-yaradan azərbaycanlılar öz istedadları ilə tariximizə parlaq səhifələr həkk etmişdilər.

***Nəzakət ƏLƏDDİNQIZI***



**MƏTANƏT**

# Baş aşağı: lakin nə üçün?..

İndi bir xatırlama edəcəm. Yəqin buna gülənlər çox olacaq. İnanmayanlar ondan çox olacaq. Tərəddüd edənlər daha da çox olacaq. Geridə qaldığımı zənn edənlər isə qat-qat çox olacaq. Nə deyirsiniz deyin, istəyirsiniz gülməkdən uğunun, keçirəm mətləbə.

Bəzən kitab oxuduğumuz o illərin o unudulmaz günlərini elə həsrətlə xatırlayıram ki... Nə qədər kitab oxuyurdıq, İlahi... Günlərimiz kitabxanalarda keçirdi. İki gündən, üç gündən bir kitab alıb evə gətirirdik. Bizə hansısa bir iş tapşıran valideynlərimizdən oğurlanıb mütaliə edirdik. Dərslərimizi hazırladıqmı, işimiz gizlidə-aşkarda, orada-burada ancaq kitab oxumaq olurdı. Kitablar da o qədər maraqlı idi ki, bitirmədən gözümüzə yuxu getmirdi. Dəfələrlə "Ay bala, o işığı söndürün, yatın, ta gecdir",-deyən ata-anamıza hər dəfə "Yaxşı, indicə söndürürük",-deyərək gecə yarısı kitabı bitirib, sabah yenə kitabxanaya gedir, yeni kitablar alırdıq. Desəm ki, kitabxanalarda ta oxunmamış kitab qoymamışdıq qala, bu dəfə daha ucadan güləcəksiniz. Neynim, gülün də. Ancaq vallah belə idi.

Bir də ki, bizim dünənimizə kimsə gülərsə, biz nə yaxşı onun bu gününə gülməyək?.. Biz gözümüzü kitabdan ayırmırdıq, siz telefondan ayırmırsınız. Bizə "Ay bala, bu qədər kitab gözlərinizi kor edəcək" deyirdilər, sizə "bu telefonlar gözünüzü kor edəcək" deyirlər. O vaxt əksəriyyət başı aşağı kitab oxuyurdu, indi haradayıqsa- evdə, küçədə, nəqliyyatda, orada əksəriyyətin başı aşağı, gözü telefondadır. Yaxşı, biz kitab oxuyurduq, bəs siz nə edirsiniz başı aşağı? Vallah, düzü bilmirəm günün bu qədər saatını orada nə axtarırlar. Ancaq həqiqətən çox maraqlıdır nə axtardıqları. Axşamadək barmaqlar bir saniyə dincəlmir: axtarır, yazır, pozur... Bircə onu bilirəm ki, barmaqlar nə qədər işləyirsə, beyin bir o qədər yorğun düşür. Lakin kitab oxuyarkən beyin dincəlir, zehin açılır.

Mətləbdən uzaqlaşmayaq. Bu günlərdə metroda yenə əksər başı aşağı, gözü telefonda hər yaş qrupundan olan insanları müşahidə edərkən başı aşağı kitab oxuduğumuz o illəri xatırladım. Öz-özlüyümdə xeyli müqayisə apardım. O vaxtlar elə bu metroda da kitab oxuyanlar çox idi. Nə oldu görəsən, niyə kitablar qatlanıb bir kənara atıldı? Bir andaca kitabların o möhtəşəm ətri gəldi burnuma. Harada qaldığımızı bəlli etmək üçün qatladığımız səhifələr... Saxlanc yerimiz olan səhifələr... Orada saxladığımız şəkillər, quruyub səhifələrin arasında özünə yer edən xatirələr dolu güllər... Bəlkə indi də hansısa kitabxanada kitabların arasındaca qalır onlar. Kitabxanalarda digər "yaşayanlar" kimi.

Görəsən niyə kitabları telefonlara dəyişdik? Telefonlar da o kitablar kimi saxlanc yeri ola biləcəkmi? Yəni içindəki minlərlə şəkilləri, xatirələri əbədi saxlaya biləcəkmi? Yoxsa bir an internet itərsə, şəkillər də, xatirələr də itəcəkdir. Ən əsası isə görəsən kitabların insana verdiklərini 100 il bundan sonra telefonlar verə bilərmi?

Elə bu düşüncələrlə o illərlə bu illər arasında var-gəl edərkən oturacaqlardan birində kitab oxuyan bir gənc oğlan gördüm. Nə qədər sevindimsə, məmnun oldumsa, dəfələrlə özözümə "Şükür sənə, İlahi",-dedim. Bəli, başımızı aşağı salaq, lakin telefondan çox, kitab üçün.

# "Bu prosesdə əsas sözü Suriya xalqı deməlidir"





"Suriyada artıq hakimiyyət dəyişikliyi, demək olar ki, qüvvədədir. Köhnə rejim artıq öz səlahiyyətlərini təhvil verib getdi". Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.

O bildirib ki, köhnə baş nazir təhvil-təslim prosesindədir: "Həm suriyalıları, həm ətrafda olan ölkələri ən çox düşündürən odur ki, Suriya gələcəyə aparacaq yolu necə təsəvvür edir, hansı yola üstünlük verəcək, hansı dövləti quracaq?" Problemlərin və sualların sayı çoxdur. İddialı olanların da sayı çoxdur. Burada həm milli, dini azlıqlar, həm də çoxluqlar var. Bunların hamısının deməyə sözü var. Çünki neçə illər ərzində Əsəd ailəsinin hökmranlığı var idi. İnsanların səsi də boğulmuşdu, səsini çıxaranı da zindana salırdılar. İndi isə bir çox qadağalar aradan qaldırılıb. Amma bu, o demək deyil ki, ən yaxın zamanda Suriyada aydın mənzərə formalaşacaq, insanlar öz seçimlərini edəcəklər. Çünki Suriyanın dərin problemləri həddindən artıq çoxdur. Hələ iqtisadiyyat əsas problemi deyil. Tələb olunan əsas məsələ milli zəmində konsensusun əldə olunmasıdır. Çünki artıq bəzi qüvvələr kürd dövlətinin yaradılmasından, sünni ölkəsinin formalaşmasından danışırlar. Bu prosesdə əsas sözü Suriya xalqı deməlidir. Birincisi, gərək sabit şərait formalaşsın, silahdan istifadə minimuma endirilsin, aradan qaldırılsın. Nəhayət, bütün səs hüququna malik hər bir tərəf öz münasibətini bildirsin. Bunun üçün münasib mədəni fon olmalıdır ki, hər bir etnosun nümayəndələri istəklərini bəyan etsinlər. Referendum keçirilməlidir. Bu haqda çoxları danışır, bildirirlər ki, bu, münasib yol seçmək istiqamətində ən ümidverici gediş ola bilər. Mən də elə düşünürəm ki, ümidverici gediş ola bilər, ancaq bir halda ki, kənar müdaxilələr olmasın. İsrail oraya qoşun yeridir, onların yeni ərazilərini işğal etməyi özü üçün borc bilir. Bu, düzgün məsələ deyil. Digər tərəfdən qonşular da özlərinin haqqında da düşünürlər ki, məqamdır, bəlkə, Suriyanın parçalanmış vəziyyətindən istifadə edib dividentlərini artırsınlar. Bu, keçərli variant deyil. Mənə elə gəlir ki, əvvəl-axır Suriya xalqı mütəşəkkillik nümayiş etdirməlidir. Baxmayaraq ki, dini, etnik, məzhəb baxımından onlar müxtəlifdirlər. Buna baxmayaraq ölkənin bütövlüyünü saxlamaq üçün gərək daha çox yüksək dəyərlərə köklənsinlər".

"Gərək hər hansı bir qüvvə səlahiyyəti öz üzərinə götürsün ki, keçid proseslərinin hamısını tənzimləsin. İnsanlara ilk növbədə ümid bəxş etsin ki, artıq öz talelərinə sahib çıxmaq üzrədirlər. Sonradan həmin taleyi addım-addım formalaşdırsın. Bu olmasa, orada vətəndaş müharibəsinin sonu olmayacaq. Çünki birincisi, silahlı dəstələrin sayı çoxdur. Digər tərəfdən fitnə-fəsadla məşğul olanların sayı çoxdur. Qonşu ölkələrin də iddiaları öz qüvvəsini saxlamaqdadır. Ona görə də, bu istiqamətdə Suriya xalqı gərək bir qədər özünə suallar verib o sualların cavabını tapsın, onlardan irəli gələn addımları etsin ki, yaxın zamanda sabitlik təminatlı şəkildə oturuşsun. Ölkənin yenidən siyasi institutları, ordusu formalaşsın " - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# “Ermənistanın əsas kuratoru Fransadır”

"Nə olub, siz niyə kənar himayəsiz yaşaya və regiondakı qonşularınızla normal münasibətlər qura bilmirsiniz?





*EKSPERT RƏYLƏRİ*

## Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ”KTMT-nin Ermənistanın suverenliyinin qorunmasına biganəliyi” ilə bağlı

köhnə ”şarmanka”sını ifa etməyə yenidən başlayıb. ”Biz heç vaxt real dəstək almamışıq. Bu laqeyd münasibət böyük məyusluğa səbəb oldu”,- deyə Mirzoyan Finlandiyanın ”L?nnen Media” agentliyinə müsahibəsində bildirib. Eyni zamanda, o, həmçinin əlavə edib ki, Ermənistan avropalı tərəfdaşlarla münasibətləri dərinləşdirir.

Niyə yenə İrəvanda ”çətin yaşamağın-



dan” danışmağa başlayırlar? Caliber.Az-ın əməkdaşı bu sualla rusiyalı ekspertlərə müraciət edib. Ekspertlərin rəylərini oxucularımıza təqdim edirik.

Dünya İqtisadiyyatı və Beynəlxalq Əlaqələr İnstitutu Postsovet Araşdırmaları Mərkəzinin Asiya sektorunun rəhbəri Stanislav Pritçinin sözlərinə görə, Ermənistanın baş nazirinin ötən həftə səsləndirdiyi bəyanatları, daha doğrusu, KTMT yə geri dönüş nöqtəsində olan Ermənistan arasındakı münasibətləri nəzərə alsaq, Mirzoyanın sözləri ən azı qəribə görünür.

”Xüsusilə nəzərə alsaq ki, Paşinyanın bəyanatı mahiyyət etibarı ilə Vladimir Putinin Ermənistanın KTMT-dən çıxmasını təsdiq edən heç bir sənədin olmadığı barədə bəyanatına cavab idi. Paşinyan Ermənistanın KTMT-dəki fəaliyyətini dondurduqdan sonra təşkilatdan çıxmaq qərarına gəlməyə meylli olduğuna da eyham vurmuşdu.

Bununla belə, Mirzoyanın bəyanatı özünəməxsus şəkildə vurğulayır. Tamamilə aydındır ki, hazırda İrəvanın oyununun mahiyyəti ondan ibarətdir ki, o, nəhayət, blokdan çıxmağa cəsarət etmir, eyni zamanda hər dəfə KTMT-yə qarşı iddialar səsləndirir və bu mövzudan öz səhvləri və yanlış hesablamalarına görə məsuliyyəti yayındırmaq fürsəti kimi istifadə edir”,- deyə S.Pritçin yekunlaşdırıb.

Avrasiya üzrə iqtisadçı-ekspert, politoloq Aleksandr Razuvayevin fikrincə, Ermənistan daim müəyyən tarixi paradoks aurasında mövcuddur.

”Heç kim Ermənistana hücum etmədi, Ermənistan özü də separatçı ”Qarabağ rejimi”nın müstəqilliyini tanımırdı, çünki onlar başqasının mülkünü ələ keçirdiklərini başa düşdülər. Rusiya Xarici İşlər Nazirliyi hər zaman Qarabağın Azərbaycanın bir hissəsi olduğunu vurğulayırdı. Belarus prezidenti Aleksandr Lukaşenko isə çox düzgün qeyd edib ki, KTMT-yə türk ölkələri də daxildir. Rusiyada yaşayan ciddi türk komponenti var: Kazan, Ufa və s. yerlərdə.

Ermənistanda nə istəyirdilər- türklər türkləri öldürsünlər? Ermənistanın özü isə Minsklə münasibətləri korlayıb, kobudluq edəndə Aleksandr Qriqoryeviçin xoşuna gəlmir və İrəvan bunu yadda saxlamalıdır. Beləliklə, Ermənistanın KTMT-də olmasının mənası tam aydın deyil- indi də onlar özləri Rusiya ilə əlaqələri kəsməyə hazırlaşdıqlarını bəyan ediblər, görürük ki, onlar NATO ilə əməkdaşlığa arxalanırlar, görünür, qisas gözləntisi ilə. Belə bir deyim var: ”Allah bir qövmə əzab vermək istəsə, onu ağlından məhrum edər”. Bəli, Ermənistan həqiqətən də qisas almağa cəhd edə bilər- amma bu halda Azərbaycanın bir hissəsi olmaq riski ilə üzləşər. Qatı etnik millətçilik heç vaxt heç bir xalqa xeyir



gətirməyib”,- politoloq qeyd edib.

A.Razuvayevin fikrincə, Ermənistan əvvəlcə uğursuz dövlət kimi görünür və mövcuddur, onun daim hansısa xarici sahibə, kuratora ehtiyacı var.

”Nə olub, siz niyə kənar himayəsiz yaşaya və regiondakı qonşularınızla normal münasibətlər qura bilmirsiniz? Məncə, Ermənistanın əsas kuratoru Fransadır. O da göz qabağındadır ki, Tramp Ermənistana və onun intriqalarına qətiyyən maraq göstərmir; İrəvandan həmişə bir çox ziddiyyətli bəyanatlar eşidilib, lakin onların heç kimin onlara heç bir borcu olmadığını anlamadan KTMT ilə həmişəlik qopduqları göz qabağındadır”, - deyə A.Razuvayev yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***







# Suriya hadisələrindən hayların almalı olduğu DƏRS

***Haylar açıq şəkildə bildirirlər ki, Rusiya onların gözlərinin qabağında zəifləyir, amma hələ də nəticə çıxara bilmirlər. Hətta ermənilər açıq şəkildə deyirlər ki, Suriyada üzünə tərsinə bir şillə dəyən ölkə onların müttəfiqi ola bilməz. Belə çıxır ki, haylar öz müttəfiqlərini dəyişmək niyyətinə düşüblər və dəyən şillənin onlara da aid olduğu qənaətindədirlər. Erməni cəmiyyəti elə hesab edir ki, daha Rusiyadan əlini üzməlidir və Suriyada baş verənlər onlar üçün əsl dərs hesab edilməlidir.***



## Görünür ki, əsl dərsin nədən ibarət olduğunu haylar qətiyyən başa düşə bilməyiblər

Suriya prezidenti Bəşər Əsədin öldüyünə də haylar yaman çox inanmaq istəyirlər. Haylar daha çox hazırda dünyanın aparıcı mediası tərəfindən fəal şəkildə yayılan məlumatlara, Bəşər Əsədi "aparan" təyyarənin qəfil hündürlüyünü, öz səviyyəsini itirməyə başlayaraq, sonra radarlardan itməsinə guya daha çox inanırlar. Onlar sanki həmin təyyarənin qəzaya uğramasına elə bil ki, son dərəcə əmindirlər. Ermənistan mediasında qeyd olunur ki, bu barədə, yəni qəza barəsində monitorinq kanalları da məlumat verir. İddia olunur ki, "FlightRadar"-ın məlumatına görə, göyərtəsində Əsədin olduğu iddia edilən SYR9218 nömrəli İl-76T təyyarəsi Əl-Suvayri yaxınlığında qəzaya uğrayıb. Bu məqamda əsasən onu vurğulamaq yerinə düşərdi ki, ancaq erməni cəmiyyəti məhz Bəşər Əsədin ölməsinə hamını inandırmağa və bundan da öz istədiyi şəkildə "istifadə etməyə" çalışır. Əsasən hadisələri özləri başa düşdükləri şəkildə olan bir dərs kimi də sırımağa çalışanlar, belə görünür ki, əsl dərsin nədən ibarət olduğunu qətiyyən başa düşə bilməyiblər.

Diqqətə çatdıraq ki, bundan əvvəl "Reuters" agentliyi Bəşər Əsədin Dəməşqi naməlum istiqamətdə tərk etdiyini bildirmişdi. Nəşr bu barədə iki yüksək rütbəli suriyalı zabitə istinadən məlumat da yayıb. Həmçinin hakimiyyətin bütün nümayəndələrinin Dəməşq Beynəlxalq Hava Limanını tərk etdiyi bildirilib. Bundan əlavə, Suriyanın "Şam FM" radiostansiyasının məlumatına görə, Dəməşqdə partlayış səsləri də eşidilib. Amma tam dəqiq şəkildə məlum olan odur ki, Əsədin həyat yoldaşı və uşaqları ötən həftə, daha dəqiq desək, 25 noyabr - 1 dekabr tarixləri arasında ölkəni tərk ediblər və Əsədin iki kürəkəni də Birləşmiş Ərəb Əmirliklərinə gediblər. Eyni zamanda Bəşər Əsədin sona qədər ölkədə qaldığı barədə xəbərlər dolaşır. Hətta mətbuatda Misir və İordaniyanın rəsmi nümayəndələrinin Əsədin özünü ölkəni tərk etməyə və sürgündə müvəqqəti hökumət qurmağa çağırması, Bəşər Əsədin isə buna razılaşmaması barədə məlumatlar da yer alır. Bununla belə ermənilər özlərinin mətbuat səhifələrində ağızlarından od püskürərək yazırlar ki, Rusiya nə Bəşər Əsədə, nə də onun ölkəsinə kömək etmədi və heç tükünü də tərpətmədi. Daha dəqiq desək, indi də haylar Suriyada baş verənlərə görə Rusiyanı saymazlıqda, kömək etməməkdə günahkar bəlləyirlər. Bununla da daxili auditoriyaya ünvanlanaraq, bildirmək istəyirlər ki, Rusiya onların ölkələrinin də arxasında dayanmayacaq və ümumiyyətlə, Suriya hadisələri haylar üçün bir dərs sayılmalıdır. Amma hansı şəkildə dərs almalarını dəqiq müəyyən edə bilmədikləri ortadadır.

## Haylar müttəfiq, dost və digər bu kimi anlayışları öz xəstə təxəyyülləri prizmasında başa düşə bilirlər

İndi Ermənistana məxsus mətbuat səhifələrində qeyd olunur ki, Suriya hökuməti ona belə tez və amansızcasına xəyanət olunacağına inanmayıb. Qeyd olunur ki, hər şeydən əvvəl Rusiya bu xəyanəti edib. Ermənilər belə iddia edirlər ki, Kreml nə qədər inkar etməyə çalışsa da Suriya hakimiyyətinə xəyanətkarlığı ilə yadda qalıb. İndi haylar hətta rusların həddən artıq zəiflədiklərini də əsas gətirirlər və onlarla müttəfiqlikdən imtina etməyin doğru yol olduğunu göstərməyə çalışırlar. Qeyd olunur ki, ruslar məhz hayların gözü önündə zəifləməkdə davam edir və belə bir "zəif" ermənilərə heç lazım da deyil. İşğalçı ölkə mediası ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın dediklərində haqlı olduğunu yaymaqdadır. Xüsusən də, Ağ Evin yeni sahibinin məhz üsyançıların hücumu zamanı Suriyada Bəşər Əsəd hökumətinə Rusiyanın kömək edə bilməyəcək, dediyini ermənilər daxili auditoriyada yaymağa çalışırlar.

Ermənistana məxsus mətbuat səhifələrində qeyd olunur ki, ABŞ prezidenti Rusiyanın Ukrayna müharibəsində xeyli itgi verməsi ilə bağlı çox zəiflədiyini bildirib və bunu hayların da nəzərə alması sən demə onların özləri üçün də çox lazım sayılırmış. "Ukraynada bu qədər bağlı olan və orada 600 mindən çox əsgərini itirən Rusiya, illərdir müdafiə etdiyi Suriya üzərində bu hərbi yürüşü dayandıra bilməyəcək" deyərək, guya Trampın Truth sosial şəbəkəsindəki səhifəsində yazmasını haylar əllərində "bayraq" ediblər və bu mövqedən də çıxış edirlər. Əslində, belə görünür ki, həqiqətən də haylar müttəfiq, dost və digər bu kimi anlayışları öz xəstə təxəyyülləri prizmasında başa düşə bilirlər. Onlar üçün "zəif ölkə" qətiyyən müttəfiq sayıla bilməzmiş və məhz Rusiyanı da belə zəif saydıqları üçün həmin ölkədən imtina etmək niyyətindədirlər. İndi Suriyada hansısa qüvvələrə Rusiyanın müqavimət belə göstərmək iqtidarında olmamasını ermənilər arqument kimi ortaya qoyurlar və Dəməşqdə baş verənlərin onların özləri üçün bir dərs olmasını bildirirlər. Baş verənləri məhz Rusiyanın əsas geosiyasi oyunçu statusuna ciddi təsir etməsi, eləcə də Kremlin Mərkəzi Asiyada təsirinin zəifləməsi kimi qələmə verən ermənilər bu olanlardan dərs almalı olduqlarını bildirirlər.

## Rusiya ilə "qopma prosesini" sürətləndirmək niyyəti göz önündədir

Bəli, ermənilər bir növ həyəcan təbili çalırlar və bu məqamda da Rusiyanın neft nəqlinə nəzarət etdiyi "nöqtənin" elə Suriya olduğunu da vurğulayırlar. Onlar belə hesab edirlər ki, indi Mərkəzi Asiya ölkələrinin özlərinin alternativ yolları olacaq. Daha dəqiq desək, haylara görə, Rusiya mühüm qərarlardan kənarda qalacaq və xüsusən də Qazaxıstanın neft ixracına da təsir edə bilməyəcək. Qazaxıstan isə, bilindiyi kimi, Rusiyadan yan keçməklə illik neft tədarükünü artırmağa da hazırlaşır. Qeyd olunur ki, bu məqsədlə rəsmi Astana konkret boru xətti də seçib. Bu barədə "Kursiv" nəşrinin yazdığı da diqqətə çatdırılır. Əlbəttə ki, söhbət Azərbaycan, Gürcüstan və Türkiyədən keçən Bakı-Tbilisi-Ceyhan boru kəmərindən gedir. Bildirilir ki, Qazaxıstanın planlarına əsasən, neft ixracının həcminin 1,5 milyon tondan 20 milyon tona çatdırılması planlaşdırılır və bu o deməkdir ki, kəmərlə tədarük həcmi 13 dəfədən çox artacaq, amma Rusiya buna bir tərəfdən, kənardan baxmalı olacaq. Bir sözlə, yenə də ruslar barədə haylar ancaq neqativ fikirlər bildirirlər və onlardan uzaq olmaq, əks halda, bundan sonrakı sillənin onlara dəyəcəyi fikrini yaymaq kimi bir "həvəsə" düşüblər və olanları da, baş verənləri də hayların dərs almaları üçün guya çox vacib hesab edirlərmiş.

Haylar iddia edirlər ki, yuxarıda qeyd olunan kəmər vasitəsilə neft ixracının həcminin artırılması Rusiya vasitəsilə tədarükünü 80%-dən çox azaltmaq kimi Qazaxıstana bir imkan verəcək. Hətta bu barədə "Reuters"-in materialında qeyd olunduğunu da sitat gətirirlər. Qeyd edirlər ki, sağ olub-olmamasından asılı olmayaraq, Bəşər Əsədin Suriyada hakimiyyəti itirməsi nəticəsində qalib gələn Türkiyə və Azərbaycan olub. Onların fikrinə görə bu məsələdə də Rusiya daha bir ağır sillə alıb və bu sillə də onlar üçün dərsdir. Xüsusən də Aralıq dənizindəki yeganə Rusiya hərbi dəniz bazasını, Tartusdakı bazanın itirildiyini hamıya göstərməyə, sübut etməyə çalışan haylar, bunu Kreml üçün strateji əhəmiyyətli itgi adlandırıblar. Belə bir itgidən də guya dərs almanın zamanı olduğu barədə daxili auditoriyaya car çəkirlər, hansıki məqsəd tamamilə başqadır. Hər halda Rusiya ilə "qopma prosesini" sürətləndirmək niyyəti göz önündədir.

## Rusiyanın hərbi, iqtisadi, geosiyasi çöküşünü gözləyən ermənilər mövcud durumu lap münbit şərait hesab edirlər

Artıq ermənilər sanki əmindirlər ki, Rusiyanın hərbi, iqtisadi, geosiyasi çöküşü yaxın gələcəyin məsələsidir. Kremlin lap elə Bəşər Əsəddən də əvvəl Ermənistana belə xəyanət etdiyini durmadan təkrarlayan ermənilər indi elə bil ki, ağızlarını köndələn qoymaq üçün mövcud durumu lap münbit şərait hesab edirlər. Bəlkə də uzun zamandan bəri Ukraynadakı müharibəyə görə Rusiyanın daha çox zəif olduğunu düşündükləri üçün belə "qəyrəman" kimi özlərini göstərməkdədirlər. O qədər "qəhrəmanlaşıblarmış" ki, Rusiyanın Gümrüdə olan hərbi bazasının olması məsələsi, eləcə də Ermənistanın KTMT-dən qəti və rəsmi çıxması məsələsinin tezliklə həll edilməli olduğunu da açıq şəkildə bildirirlər. Məsələ burasındadır ki, bərk yanılırlar və deyəsən öz dediklərinə ancaq özləri qulaq asdıqları kimi, özləri də inanırlar deyə uçuruma doğru böyük sürətlə addımlayırlar. Özləri üçün də ən çətin durumu formalaşdırdıqlarının deyəsən fərqində də deyillər. Nəzərə almırlar ki, Rusiya nə qədər zəifləsə belə Ermənistan kimi bir cılız ölkəni yerlə yeksan etməyə hər zaman gücü çatar. "Dəvə nə qədər ölü olsa belə, dərisi beş eşşəyə yükdür", zərb məsəlində deyildiyi kimi, Rusiyanın ən ağır durumda olan vəziyyəti belə Ermənistana bəs edəcək həddədir və bunu deyəsən haylar ya unudublar, ya da özlərini yamanca çaşdırıblar. Bir növ, Rusiyanın hərbi, iqtisadi, geosiyasi çöküşünü gözləyən ermənilər mövcud durumu deyəsən lap münbit şərait hesab edirlər. Bəlkə də Rusiyanın səbrini sonuncu dəfə sınayırlar. Çünki bu dəfəki sayıqlamalarına görə çətin ki, bağışlansınlar...

Haylar bu dəfə də dərsi yaxşı almadılar...

Bəli, ermənilər üçün, erməni cəmiyyəti üçün, Ermənistan üçün dərs almalı məqamlar həddindən artıq çoxdur. Elə Suriya məsələsindən də bir dərs almaları gərəkir, amma bu dərs heç də onların düşündükləri dərs deyil. Məhz 44 günlük müharibədəki məğlubiyyətlərinə görə rusları, Rusiyanı "günahkar çıxaran" haylar, öz şakərlərinə, ənənələrinə uyğun olaraq, yenə də Moskvanı hədəfə alıblar. Lakin bu axmaqlıqlarını bir kənara qoya bilmirlər. Başa da düşə bilmirlər ki, hansısa bir ölkədə, məsələn, Ermənistanda baş verənlərə görə digər bir ölkə günahkar ola bilməz və günahı elə həmin ölkənin öz daxilində axtarmaq gərəkir. Anlaya bilmirlər ki, məhz Ermənistan da eyni şəkildə qarışa və hadisələr elə İrəvanda da eyni şəkildə cərəyan edə bilər. Bax əsl dərs alınmalı məsələ budur. Dərs alınmalı məsələ odur ki, erməni cəmiyyəti də, hansısa cəmiyyət də nə Rusiyaya, nə də hansısa ölkəyə deyil, özünə güvənməlidir. Əks halda, nə kimi faciələrin baş verməli olduğunu hər halda dəfələrlə görmələri onlar üçün daha bir dərs olmalıdır. Suriyadan haylar üçün alınmalı olan dərs də əsasən məhz bundan ibarət olmalı idi, amma heyif ki, bu dərsi də yaxşı almadılar...

***İnam Hacıyev***

*HƏRBİ EKSPERT DANIŞDI*

# "Heydər Əliyev gələcəyin təminatçısı funksiyasını ləyaqətlə yerinə yetirməyə çalışıb"





"1993-cü ildən ölkə səviyyəsində xüsusi istiqamət kimi, vahid prinsiplərə söykənən milli inkişaf və təhlükəsizlik siyasəti həyata keçirilməyə başladı. Azərbaycanın milli inkişaf və təhlükəsizliyinin nəzəri və praktiki məsələləri geniş ictimai-siyasi və elmi müzakirəyə çıxarıldı, onun konseptual əsasları müəyyən edildi. Həmin dövrdən etibarən bu siyasət müstəqil dövlət quruculuğu proseslərinin bütün sahələrini əhatə edərək, milli inkişafın və dövlət idarəçiliyinin əsas vasitələrindən birinə çevrildi". Bu sözləri SİA-ya açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov deyib.

O bildirib ki, Azərbaycanın milli təhlükəsizlik fəaliyyəti ilk 5-6 ildə əsasən təcili və təxirəsalınmaz işlərdən ölkədə dərin ictimai-siyasi və sosial-iqtisadi böhranın doğurduğu daxili və xarici təhdidlərin qarşısının alınmasından, vətəndaş qarşıdurmasının dayandırılmasından və ölkə miqyasında dövlət idarəçiliyinin yaradılmasından ibarət idisə, sonrakı illərdə, xüsusən, 1998-ci ildən başlayaraq dövlətin xarici və daxili təhlükəsizliyinin milli sisteminin yaradılması sahəsində ardıcıl konseptual siyasi xəttə çevrilmişdir: "Azərbaycan Respublikasının milli təhlükəsizliyinin nəzəri əsasları müstəqil dövlətimizin banisi Heydər Əliyevin 1993-2003-cü illərdəki ayrı-ayrı çıxışlarında öz əksini tapmışdır. Lakin bütövlükdə ölkənin Milli Təhlükəsizlik Konsepsiyasının ərsəyə gəlməsi və təhlükəsizlik siyasətinin tam formalaşdırması üçün Azərbaycan hökumətinə xeyli vaxt lazım olmuşdur.

Azərbaycan Respublikası bu gün öz dövlətçilik ənənələrini daha da inkişaf etdirərək etibarlı gələcəyi, əbədiyaşarlığı üçün sarsılmaz təməl yaradır. Bu sahədə üzərinə mühüm vəzifələr düşən Milli Təhlükəsizlik Nazirliyi (indiki Dövlət Təhlükəsizliyi Xidməti) Azərbaycan xalqının ən böyük nailiyyəti olan dövlət müstəqilliyinin qorunub saxlanılmasında və daha da möhkəmləndirilməsində mühüm işlər görmüşdür. Milli Təhlükəsizlik Nazirliyi (indiki Dövlət Təhlükəsizliyi Xidməti) ölkənin və xalqın təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, müstəqil respublikamızın sələfi olan Azərbaycan Xalq Cümhuriyyətindən miras qalmış milli-mənəvi dəyərlərin qorunması, irslə varis arasındakı bağların bərpası istiqamətində də xeyli uğurlar qazanmışdır. MTN Heydər Əliyevin rəhbərliyi altında yalnız keçmişin mütərəqqi ənənələrinin və müasir dövlətimizin təhlükəsizliyinin keşiyində dayanmamış, həm də sabahın, gələcəyin təminatçısı funksiyasını ləyaqətlə yerinə yetirməyə çalışmışdır.

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində təxribat-pozuculuq hallarına son qoyuldu. Heydər Əliyevin qeyd etdiyi kimi: "Xaricdəki və ölkə daxilindəki pozucu qüvvələr Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmaq, iqtisadi islahatların həyata keçirilməsinə və ölkəyə xarici kapitalın axınının təmin olunmasına mane olmaq məqsədi ilə digər təxribat əməllərinə, hətta ölkə başçısına qarşı terror aktlarına da əl atdılar. Həyata keçirilən məqsədyönlü və qəti tədbirlər nəticəsində bütün bu cəhdlərin qarşısı alındı". Lakin müasir dövrdə Azərbaycanda daxili təhlükəsizliyin təminatı məqsədi ilə terrorizmə qarşı mübarizə yalnız erməni terror təşkilatları və ya Ermənistan dövləti tərəfindən dəstəklənən terror təşkilatlarına qarşı mübarizə ilə məhdudlaşmır. Məhz Heydər Əliyevin apardığı siyasət nəticəsində bu gün də Azərbaycan beynəlxalq antiterror koalisiyasının üzvlərindən biri olmaqla ölkə daxilində müvafiq təşkilatların və onlarla əlaqədə şübhəli bilinən qurumların fəaliyyətinin maksimal dərəcədə nəzarət altında saxlanılmasına nail olmuşdur. Bu faktlar öz ifadəsini 2003-cü ilin mayın əvvəllərində ABŞ Dövlət Departamenti tərəfindən dərc edilmiş "2002-ci ildə dünyada terrorizmin vəziyyəti haqqında" hesabatda da tapmışdır".

Onun sözlərinə görə, bu gün Heydər Əliyevin siyasi kursunu inamla və uğurla davam etdirən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz dövlətçilik ənənələrini daha da inkişaf etdirir: "Məhz Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə mühüm təşkilati-əməli islahatların həyata keçirilməsi, zəruri hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər planı işlənib hazırlanmışdır. "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat haqqında", "Dövlət sirri haqqında" Azərbaycan Respublikası qanunlarının, "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası"nın və sair qanunvericilik aktların, normativ-hüquqi sənədlərin qəbulu təhlükəsizlik orqanlarının fəaliyyət istiqamətlərinin qanunvericilik bazasının təkmilləşdirilməsinin göstəriciləridir.

Hazırda qlobal təhlükəsizlik arxitekturasının, beynəlxalq nizamın ciddi təzyiq və təsirlərə məruz qaldığı, regional əmin-amanlığa təhdidlərin artdığı bir dövrdə dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin qorunması və möhkəmləndirilməsi işinin daha da yüksəldilməsi təhlükəsizlik orqanlarının da fəaliyyətinin daim təkmilləşdirilməsini, müasir çağırışlara cavab verən adekvat bir xüsusi xidmətə çevrilməsini zəruri edir".

***Söylü Ağazadə***

# "İnflyasiyanın səviyyəsi 4.6 faiz nəzərdə tutulur"





MÜNASİBƏT

"2025-ci ilin büdcə zərfində makroiqtisadi sabitlik, davamlı iqtisadi artım və büdcə dayanıqlığı, iqtisadi siyasətin prinsipləri və əsas hədəfləri müəyyən edilir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Samir Heydərov deyib. Samir Heydərov sözlərinə belə davam edib: "Rifaha və iqtisadi artıma yönəldilmiş xərclər bir-birini tamamlayır və günün reallığlarına cavab verir. Ölkənin strateji valyuta ehtiyatları 73 milyard dollar təşkil edir. 2024-cü ilin on ayında müşahidə olunan müsbət makroiqtisadi meyillər 2025-ci il üzrə proqnozlar üçün pozitiv əsaslar yaradır. Proqnozlara növbəti ildə ümumi daxili məhsul 3.5 faiz, qeyri neft ümumi daxili məhsulu 4.9 faiz artacaq.

ÜDM -də qeyri-neft qaz sektorunun payının 68 fizdən 71.3 faizə çatacağı gözlənilir. Adambaşına ÜDM-in 2025 ci -ildə 7412 ABŞ dolları təşkil edəcəyi proqnozlaşdırılır. İnflyasiyanın səviyyəsi 4.6 faiz nəzərdə tutulur. Qeyd olunub, dövlət büdcəsinin gəlirləri 38.3 milyard manat, xərcləri 41.4 milyard manat kəsiri isə 3 milyard 52 milyon manat proqnozlaşdırılır. Büdcə gəlirlərinin 49 faizi neft, 51 faizi isə qeyri-neft gəlirlərinin hesabına formalaşacaq. Gəlirlərin 15.5 milyard manatı Dövlət Vergi Xidmətinin, 14.5 milyard manatı Dövlət Neft Fondunun transverlərinin, 6.6 milyard manatı Dövlət Gömrük Komitəsinin, 840 milyon manatı büdcə təşkilatlarının daxilolmalarının, 895 milyon manatı digər gəlirlərin payına düşür. 2025-ci ilin dövlət büdcəsi xərclərinin 60.1 faizi cari xərclər, 34.1 faizi əsaslı xərclər, 5.8 faizini dövlət borcuna xidmətlə bağlı xərclər təşkil edir.

Sosiyal yönümlü xərclərin 8.8 faiz artrılaraq 16.9 milyard manata çatması və dövlət büdcə xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir. İqtisadi strategiyanın icrası üçün 2.5 milyard manat vəsait nəzərdə tutulub. Post müharibə və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri əsas prioritetlərdəndir. Növbəti illin dövlət büdcə layihəsində bu məqsədlər üçün 4 milyard manat nəzərdə tutulur. 2025- ci ilin dövlət büdcəsi layihəsində neftin 1 barelinin qiyməti 70 dollar götürülmüşdür. 2025- ci ilin büdcə zərfinə əsasən Dövlət Neft Fondundan transfertlər artrılaraq təqribən 14.5 milyard manat nəzərdə tutulur. Onu da qeyd etməliyəm ki, müdafiə və milli təhlükəsizliyin maliyyələşdrilməsinə 8.4 milyard manat nəzərdə tutulur ki, bu da keçən illə müqayisədə 17.8 faiz çoxdur. Büdcənin xərclərinin 20.3 faizini hərbi xərclər təşkil etdiyi halda sosialyönümlü xərclər 41 faiz, iqtisdi fəaliyyətlə bağlı xərclər 21 faiz təşkil edir. Təhsil xərcləri 4.9 milyard manat proqnozlaşdrılır və bu 2024-cü illə müqayisədə 8.7 faiz çoxdur. Səhiyyə xərclərinə dövlət büdcəsində təxminən 2 milyard manat ayrılır ki, 2024-cü illə müqayisədə 7.1 faiz çoxdur. Bu vəsaitin 63.4 faizi dövlətin əhalinin icbari tibbi sığortalanması ilə bağlı xərclərin payına düşür.

Layihəyə əsasən əhalinin sosial demoqrafik qrupları üzrə yaşayış minimum məbləği 2025-ci il üçün ölkə üzrə 285 manat, əmək qabiliyyətli əhali üçün 305 manat, pensiyaçılar üçün 232 manat, uşaqlar üçün 246 manat məbləğində müəyyən edilir. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsinin gəlir və xərcləri cari illə müqayisədə 10.5 faiz, İşsizlikdən Sığorta Fondunun növbəti il büdcəsinin gəlir və xərcləri isə cari illə müqayisədə 9.5 faiz çoxdur".

***Ayşən Vəli***

# Həddindən artıq paylaşım xəstəlikdirmi?

***Həddindən artıq paylaşım kimi tərcümə olunan "Oversharing" sözü münasibətlər, dostluq, şəxsi həyat və ya ailə ilə bağlı məxfi sayıla bilən və haqqında danışılmamalı olan məsələləri başqaları ilə paylaşmaqdır. İnsanlar bəzən şəxsi həyatlarını həddindən artıq və yersiz paylaşa bilərlər. Həddindən artıq paylaşım məxfilik problemlərinə, kiber zorakılığa və sosial münasibətlərdə problemlərə səbəb ola bilər.***




## Bəs, bu nədən qaynaqlanır?

SİA mövzu ilə bağlı araşdırma apadıb.

## "Oversharing" nədir?

"Oversharing" sözü ingiliscə over (həddindən artıq) və paylaşmaq (paylaşma) sözlərinin birləşməsindən əmələ gələn anlayışdır və insanın şəxsi həyatını və məxfiliyini lazım olandan çox paylaşmaq mənasını verir.




Bu cür davranan insan öz həyatını da, başqa insanların da həyatını paylaşa bilər. Normalda paylaşarkən harada limit qoymağın yaxşı olacağının cavabı insanlar arasındakı emosional yaxınlıq səviyyəsinə görə müəyyən edilsə də, həddindən artıq paylaşanlar üçün bu mövzuda limitdən danışmaq mümkün deyil. Çünki bu insanlar öz həyatlarını açıq şəkildə bölüşməkdən çəkinmirlər. Aşırı paylaşım psixoloji və ya psixi pozğunluq deyil, bəzi xəstəliklərin əlamətləri arasında ola biləcək bir vəziyyətdir. Bəzən uzun müddət həddən artıq paylaşım da psixoloji balanssızlığa səbəb ola bilər.

## Həddindən artıq paylaşımın əlamətləri hansılardır?

Həddindən artıq paylaşma ilə bağlı həyəcan zənglərinin bir az çalmağa başladığına dair bəzi əlamətlər var. Bunlara dostlarını terapevt kimi görmək, fərdi seçim etməkdə çətinlik çəkdiyi üçün davamlı olaraq həyatını bölüşmək və sosial media asılılığı daxildir. Dostları peşəkar terapevt kimi görmək: Zaman zaman dostlarla problemləri paylaşmaq normal olsa da, söhbətlərin əksəriyyəti bir tərəfin şəxsi həyatına aid problemlər və detallarla doludursa, həddən artıq paylaşım siqnal ola bilər. Sükutdan qaçmaq üçün danışmaq: Bəzi insanlar üçün səssizlik həddən artıq paylaşıma səbəb ola bilər. Söhbətdəki boşluqları doldurmaq üçün narahat edici xatirələri və dərin şəxsi lətifələri paylaşmaq həddindən artıq narahatlığın nəticəsi ola bilər, nu insanlar ictimailəşərkən səssizlik yarandıqda problem varmış kimi hiss edə bilər.

Fərdi seçimlər etməkdə çətinlik çəkmək: Kiminləsə məsləhətləşmədən həyatda çox sadə qərarlar qəbul edə bilməmək insanı həddən artıq paylaşaraq daim fikir axtarışı burulğanına sürükləyə bilər. Həddindən artıq mükəmməllik kimi pərdə arxasında səbəblər ola bilər. Sosial media hesabında daim aktiv olmaq: Sosial mediada izlədiyiniz hər insanla yaxın dost olmaq mümkün deyil. Başqalarının məxfilik sərhədlərini itirmək: Sirr saxlamaqda tez-tez problem yaşayan insanlar, çox güman ki, həddən artıq paylaşımçılardır.

## Həddindən artıq paylaşımın səbəbləri nələrdir?




Həddindən artıq paylaşım edən bir insan olmağın arxasında bəzi əsas amillər var. Bunlara sosial narahatlıq, tənhalıq qorxusu, özünə inam problemi yaşayan və aidiyyəti hiss etmək ehtiyacı olan insan ola bilər. Sosial anksiyete: Bəzi insanlar həddindən artıq narahat ola bilər və sosiallaşarkən çox danışmağa meyllidirlər. Narahatlığa görə, nə danışdıqlarını belə anlamadan çox paylaşa bilərlər.

**Yalnızlıq qorxusu:** Yalnızlıq qorxusu olan insanlar bəzən bu narahatlığı aradan qaldırmaq üçün sosial mediadan istifadə edirlər. Üz-üzə ünsiyyətdə olarkən, kiminləsə tanış olub danışmaq istəyərkən əvvəlcə ondan bunu etmək istəyib-istəmədiyini soruşmalısınız, lakin sosial mediada bu tələb aradan qaldırılır. Yalnızlıq qorxusunu azaltmaq üçün bəzi insanlar yazıları diqqətlə oxuyanların sayına fikir vermədən ünsiyyət illüziyası vasitəsilə müvəqqəti rahatlamaya müraciət edə bilərlər.

**Özünə inam problemi:** Daxildə qeyri-adekvat hiss etmək özünü sosiallaşmada həddən artıq paylaşma kimi göstərə bilər. İnsan özü haqqında yaxşı təsəvvür yaratmaq üçün şəxsi həyatı ilə bağlı bir çox məsələni hər kəsə danışa bilər. Özünə inam problemləri bəzən təsdiq üçün güclü ehtiyaca səbəb ola bilər ki, bu da həddən artıq paylaşıma səbəb ola bilər.

**Hiss etmə ehtiyacı:** İnsan sosial varlıqdır. Fərdi xüsusiyyətlərlə mövcudluğun tarazlı tərəqqisi və sosial qrup və ya bir neçə sosial qrupların üzvü olmaq sağlam psixologiyanın göstəricisidir. Sosiallığı fərdi varlığını alt-üst edən biri özünü təhlükəsiz və bir qrupa aid hiss etmək üçün xüsusilə sosial mediada paylaşım edə bilər. Stressin öhdəsindən gəlmək: Hər hansı bir məsələdə əsəbiləşən biri, stresin öhdəsindən gəlmək üçün xüsusilə onu əsəbiləşdirən mövzu və ya şəxs haqqında həddindən artıq paylaşmağa meylli ola bilər.



**Travma ilə mübarizə aparmağa çalışmaq:** "Trauma" yara mənasını verən yunan sözüdür və demək olar ki, bütün həyatı formalaşdırmaqda təsirli bir elementdir. Travma hansısa hadisə nəticəsində baş verənlərlə məhdudlaşdığınız zaman baş verir. Bu hadisə zahirən sadə bir məzəmmət və ya şiddətli təcavüz ola bilər. Hadisənin ciddiliyi kənardan baxanda heç bir əhəmiyyət kəsb etmir. Önəmli olan insanın daxilində açılan yaradır. Travmanın öhdəsindən gəlmək üçün bəzən insanlar yaşadıqları çətinliklər və məhdudiyyətlər haqqında çox danışmağa meylli ola bilərlər. Virtual paylaşım məkanının azadlığı: Şəxsi məlumatı üz-üzə açıqlamaqdansa, ekran arxasından paylaşmaq, etdiyin işin etik olub-olmadığını nəzərə almaq ehtiyacını əhəmiyyətli dərəcədə azaldır və həddən artıq paylaşıma səbəb ola bilər.

## Həddindən artıq paylaşım xəstəlikdirmi?

Həddindən artıq paylaşım həmişə ruhi xəstəliyin əlaməti olmasa da, müəyyən pozğunluqların və bu pozğunluqların xəstələrdə yaratdığı simptomların əlaməti ola bilər. Məsələn, bipolyar pozğunluqdan və ya sərhəd şəxsiyyət pozğunluğundan əziyyət çəkənlər öz emosiyalarını və impulslarını idarə etməkdə çətinlik çəkə bilər və nəticəni nəzərə almadan impulsiv hərəkət etmələrinə və şəxsi məlumatları paylaşmalarına səbəb ola bilər. Narsisistik şəxsiyyət pozğunluğu kimi şərtlərin əlaməti olaraq insanlar bəzən başqalarının diqqətini cəlb etmək və ya onların razılığını qazanmaq üçün şəxsi məlumatları açıqlamaq məcburiyyətində qala bilərlər. Travmalardan əziyyət çəkən və ya sui-istifadəyə məruz qalan insanlar sərhədləri müəyyən etməkdə çətinlik çəkə bilər və bununla mübarizə mexanizmi kimi şəxsi məlumatları həddən artıq paylaşa bilərlər.

Paylaşım bəzi problemlər üçün sağlam mübarizə strategiyası ola bilsə də, müvafiq sərhədlər təyin etmək və lazım gəldikdə ixtisaslı mütəxəssislərdən dəstək axtarmaq çox vacibdir. Nəticə olaraq, həddən artıq paylaşımın özü həmişə psixi sağlamlıq probleminin əlaməti olmasa da, davranışın səbəblərindən xəbərdar olmaq və lazım olduqda müalicə axtarmaq çox vacibdir.

## Həddindən artıq paylaşımı necə azaltmaq olar?

Həddindən artıq paylaşımı azaltmaq üçün ilk növbədə əsas səbəbləri təhlil etmək vacibdir. Kök səbəblərini müəyyən etməklə siz bəzi ehtiyat tədbirləri görə və sadə təcrübələrlə həddən artıq paylaşımı azalda bilərsiniz.

Problemi həll etməyə çalışmaq: Həddindən artıq paylaşma ilə bağlı ən balanslaşdırıcı müdaxilə probleminizi tapmaq və bunun üçün həllər tapmaq ola bilər.Suallar: Sosiallaşmaq adı ilə həddən artıq paylaşım burulğanına sürükləndiyinizi başa düşsəniz, söhbəti inkişaf etdirmək üçün çox şey söyləmək əvəzinə qarşı tərəfə suallar verməyə cəhd edə bilərsiniz.

Çıxışdan əvvəl nəfəs fasiləsi: Hər hansı bir platformada danışmağa və ya paylaşmağa başlamazdan əvvəl bir neçə dəfə dərin nəfəs alın və soruşun: "Mənim paylaşacağım şey qarşı tərəf üçün uyğun, maraqlı və ya faydalıdırmı?" kimi suallar verə bilərsiniz. Sosial media pəhrizi: Sosial media həddən artıq paylaşma üçün ən vacib sahələrdən biridir, buna görə də zaman-zaman sosial mediadan uzaq olmaq, özünüzü dinləmək üçün yaxşı bir yer təmin edə bilərsiniz.

## Həddindən artıq paylaşma haqqında tez-tez verilən suallar

*Həddindən artıq paylaşımı necə dayandırmaq olar?*

Həddindən artıq paylaşım vərdişindən imtina etmək vaxt və səy tələb edir. Hər şeydən əvvəl, paylaşılan mövzunun arxasındakı hisslərinizi, düşüncələrinizi və impulslarınızı bilmək yaxşı bir ilk addım ola bilər. Daha sonra həddən artıq paylaşım riski olan hallarda bir neçə dəqiqə dayanmaq, aktiv dinləmə rejiminə keçmək və paylaşma limitləri haqqında oxumaq dəstəkləyici təkliflər kimi qəbul edilə bilər.

***Ayşən Vəli***

# Entoni Blinken Əli Kərimlinin yeni ağası ola bilər

## Entoni Blinken tanımadığı, lakin şəbəkənin maraqlarını ifadə edənlərə mükafat paylayır

Bu günlər dağıdıcı müxalifətin təsiri altında olan saytlar, beyni yuyulmuş müxtəlif sosial şəbəkə istifadəçiləri hay-küylü, məntiqsiz və əsassız yazıları, paylaşımları ilə diqqət mərkəzinə çevrilməyə çalışırlar. Bu da onu təsdiq edir ki, COP29 konfransı ərəfəsi və konfransın keçirildiyi günlərdə qarayaxma kampaniyaları, şər və böhtanları ilə bir iş görə bilmədiklərini anladıqlarından konfransdan sonra yeni metod və sistemlə şanslarını yoxlamağa, ən azı qrant verən təşkilatların rəğbətini qazanmağa ümid edirlər. AXCP və Milli Şura rəhbərliyinin, eləcə də onların trollarının fəallaşması, həm də onu təsdiq edir ki, Azərbaycan hüquq-mühafizə orqanlarının Avropanın qaranlıq dairələrinin əlinə işləyən Bakıdakı təmsilçilərini ifşa etməsi, onların kürkünə birə salıb. Narahatdırlar ki, Abzas Media, ”Müdafiə Xətti” hüquq müdafiə təşkilatının həmtəsisçisi Rüfət Səfərovun, Toplum TV, Meydan TV və digər xarici maraqlı dairələrin casus şəbəkəsinin üzvləri kimi çıxış edənlərin ifşası onlar üçün heç də yaxşı sonluq vəd etmir. İpin bir ucunun onlara gedib çıxacağını və bu məsələ istintaqçıların gözündən yayınmayacağını anlayırlar. Ona görə də, ”qabaqdan gəlmişlik edim” deyiminə uyğun olaraq qeyri-ixtiyarı özlərini qorumağa cəhd edirlər. Əli Kərimlinin, Cəmil Həsənlinin və onların trollarının ifşa olunmasından narahat olan xarici erməniпərəst dairələr də sakit dayanmır və Azərbaycanı qaralamağa, gözdən salmağa yönələn açıqlamaları ilə təmsilçilərinə öz dəstəklərini nümayiş etdirirlər.



### Entoni Blinken tanımadığı, lakin şəbəkənin maraqlarını ifadə edənlərə mükafat paylayır

ABŞ dövlət katibi Entoni Blinken nə yaşına, nə başına, nə də oturduğu vəzifə kreslosunun qaydalarına uyğun olmayan yekəxanalıq və əndazəni aşan hərəkətlərə yol verib. ”İnsan Haqları Günü” ilə bağlı təşkil edilən tədbirdə bildirib ki, bəzi ölkələrdə insan hüquqları pozulur, insanlara qarşı həbslər həyata keçirilir, məhkəmələr tərəfindən ədalətsiz qərarlar qəbul olunur. Söz yox ki, Blinkenin bu cür sayıqlaması təsadüfi sayıla bilməz. Çünki bu şəxsin kifayət qədər yaşı var, həm də vəzifə kreslosu sıradan bir kreslo deyil. Bu məxluq bilərəkdən, həm də məqsədli şəkildə müstəqil siyasət aparan dövlətləri hədəfə alır. Hətta Azərbaycan kimi azad, demokratik, hüququn aliliyinin qorunduğu dövlətlə bağlı deyir ki, guya Azərbaycanda demokratik proseslərə xələl gətirən, insan hüquqlarının pozulmasına yol açan əməllər törədilir. İddia edir ki, guya ”Müdafiə Xətti” hüquq müdafiə təşkilatının həmtəsisçisi Rüfət Səfərov qanunsuz olaraq həbs edilib. Blinken ona təqdim olunan arayış əsasında R.Səfərov haqqında bişmiş toyuğun belə gülüşünə səbəb olan tərifli, bər-bəzəkli ifadələr səsləndirib. Sonra da elan edib ki, Rüfət Səfərov ABŞ Dövlət Departamentinin mükafatına layiq görülüb. Birincisi, R.Səfərov cinayət törədən şəxsdir. O fərdi yaşayış evinin tikintisi üçün bir nəfərə satdığı torpaq sahəsinə dair sənədləri verməkdən imtina edib. Torpağı alan şəxs pulunu geri istədikdə isə R.Səfərovun şillə-təpiyinə ”qonaq” olub. Sual olunur, belə bir təpik E.Blinkenin böyrünə və ya başına dəysə idi, o polisə müraciət etməzdimi? İkincisi, R.Səfərov deyilən, qolunun gücünə arxalanan zərərverici hansı fəaliyyətinə görə, ənama layiq görülüb? E.Bliken həbs edilənlər azad edilməlidir, deyərkən qanunlara qarşı kor və kar olduğunu nümayiş etdirir. Anlamır ki, bura Azərbaycandır, hər bir məsələ qanun çərçivəsində tənzimlənir. Digər tərəfdən, məsəl var deyərlər, ”utanmasan oynamağa nə var ki?”. ABŞ prezidenti C.Bayden hakimiyyətin ona verdiyi imkanlardan sui-istifadə edərək, qatı cinayətkar, haqqında 9 maddə ilə cinayət işi qaldırılan oğlunu əfv etdi. Bununla Bayden nümayiş etdirdi ki, ABŞ qanunları onun oğlundan üstün deyil. Qanunların ayaqlar altına atıldığı ölkənin rəsmi şəxsi olan E. Blinken utanıb-çəkinmədən başqa dövlətlərə qarşı ittihamlar irəli sürür.

### Ə.Kərimli az qalır desin ki, sənə qurban olum Blinken, nə yaxşı ki, haqqımızda elə tərifli sözlər söylədin

E.Blinkenin absurd iddialarla çıxış etməsindən ruhlanan AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli və digərləri əllərinə paslanmış şeypur alıb, yenicə banlamağa başlayan beçə kimi banlayırlar. Ə.Kərimli az qalır desin ki, sənə qurban olum, Blinken, nə yaxşı ki, haqqımızda elə tərifli sözlər söylədin. C.Həsənli ”sizə qurban olum Blinken”, ”siz nə yaxşı insansınız”, ”sizə gələn qada-bəla bizə gəlsin” deməyə hələ ki, abır-həya eləsə də, sözlərindən və statuslarından hiss etdirir ki, o bir ömür E.Blinkenə borcludur. Yəni bundan sonra az maliyyə yardımları ilə onların tapşırıqlarını yerinə yetirməkdən çəkinməzlər. Blinkenin ”siyasi məhbus” terminlərindən istifadə etməsi Ə.Kərimlinin və C.Həsənlinin keyfini o qədər açıb, durumunu o dərəcədə məmnun edib ki, Ə.Kərimli pafoslu şəkildə bəyan edib ki, bundan sonra ”siyasi məhbus”ların sayı 312-dən 328-ə qaldırılır. Əslində, Ə.Kərimlinin, C.Həsənlinin məmnun edilən ”siyasi məhbus” termini ABŞ-ın və Qərbin qaranlıq dairələrinin istifadə etdikləri iyrənc metodlardandır. Çünki ”siyasi məhbus” termini Qərb dairələrin leksikonunda siyasi dəyənək rolunu oynayır. Həmin dəyənəyi onlar müstəqil siyasət yürüdən ölkələrə qarşı yönəldir. Bir qədər əvvəl Almaniyanın faşist dərnəyinin fəal üzvü olan Frank Şveber də çıxış edərək ənənəvi ampluasına uyğun olaraq bildirmişdir ki, guya Azərbaycanda ”İnsan haqları” pozulur, ”demokratiya yoxdur”, ”ölkədə siyasi məhbusların sayı artır”. Yəni bu kimi ağıldan kəm ifadələr və ittihamlarla Azərbaycanı hədəf seçməyə və haqq yolundan, ədalətli mövqeyindən çəkindirməyə çalışıb. Bu gün də eyni ampluadadır. Lakin onlar unudurlar ki, Azərbaycan ilə şantaj dilində danışmaq heç bir nəticəyə gətirib çıxara bilməz. Digər tərəfdən Azərbaycanda ”siyasi məhbus” yoxdur, konkret cinayət törədən və əməlinə görə həbs edilənlər var. İkincisi, ABŞ-ın və Qərbin torbalı siyasi şoumenləri bilirmi ”siyasi məhbus” kimlərə şamil olunur? Əgər separatçı, oğru, quldurluq edən, qaçaqmalçılıqda ittiham edilən şəxs ”siyasi məhbus” hesab edilirsə, o zaman Avropanın və ABŞ-ın həbsxanalarında cürüyən məhbusların az qala 85-90 faizi siyasi məhbusdur. Əgər insan hüquq və azadlıqlarını belə hörmət edir və dəyər verilərsə, o zaman həbs edilən şəxsləri azad etsinlər. Digər tərəfdən, C.Baydenin kobud hüquqi səhvini düzəldib, onun oğlunu yenidən həbsxanaya göndərsinlər.

***İLHAM ƏLİYEV***

---

*EKSPERT FİKRİ*

# “Verilən ad və soyad həyatımızı başladan simvolik tilsimlərdir”



”Ad, şəxsi təyin edən ən vacib komponentlərdən biridir”. Bu sözləri SİA-ya açıqlamasında Ailə terapevti və uzman psixoloq Səbinə Bayramova deyib. O bildirib ki, bir ad sahibini təyin etməklə kifayətlənmir, eyni zamanda onu digər insanlardan da ayırır: ”İnsan istisnalar xaricində ölümünə qədər sosial dünyada bu adla var olur. Bir insan fiziki olaraq bir yerdə ola bilər, ancaq tanınmadığı müddətdə onun



”fərd” olaraq varlığı ortada yoxdur.

Tədqiqatçılar adımızın həyata keçid işarəsi olduğunu demişdir. Verilən ad və soyad, bizə məxsus həyatımızı başladan simvolik tilsimlərdir. Ədəbiyyatda ad mövzusunu ələ alan bir çox tədqiqat mövcuddur. Bu tədqiqatlar sosial, dilçilik və mədəniyyət kimi müxtəlif sahələrin çərçivəsində aparılmışdır. Uşağa ölmüş yaxınlarının adını verməyin doğruluğu və təsirləri, bir çox müxtəlif psixoloji və sosial-mədəni faktorlarla əlaqədardır. Bu məsələ həm fərdi, həm də ailə kontekstində nəzərdən keçirilməlidir.

Nənə və baba adlarının uşaqlara verilməsi, ailə bağlarını gücləndirmək və nəsil arasında əlaqəni saxlamaq üçün bir üsul ola bilər. Bu, uşağın ailəsi ilə daha dərin emosional bağ qurmasına, ailə tarixi və dəyərlərinin qorunmasına kömək edə bilər. Xüsusilə vəfat edən nənə və baba adlarının uşaqlara verilməsi, keçmişə hörmət və yaddaşın qorunması kimi mənalar daşıya bilər. Bu, uşağa ailə tarixindəki əhəmiyyətli şəxsləri xatırlatma və onlara hörmət etmək üçün bir üsul ola bilər. Bununla belə, nənə və baba adlarının uşaqlara verilməsi bəzi hallarda uşağın şəxsiyyətinə və psixoloji sağlamlığına mənfi təsir göstərə bilər. Məsələn, ölmüş bir yaxının adını daşımaq, uşağa böyük bir emosional yük gətirə bilər. Ailə içində ölmüş şəxsin yerinə keçmə və ya onun gözləntilərini qarşılamaq təzyiqi hiss edilə bilər. Bu, uşağın özünü ifadə etməsində və şəxsiyyətini formalaşdırmasında maneələr yarada bilər. Bəzi ailələr üçün ölmüş bir yaxının adını uşağa vermək, yas prosesinin bir parçası olaraq görülə bilər. Bu, ailə üçün bir növ sağalma və ya qəbul etmə simvolu ola bilər. Lakin, bu adın davamlı xatırlanması, ailə üzvlərində travmatik duyğuların yenidən canlanmasına səbəb ola bilər”.

”Psixoloji cəhətdən, uşağın fərdiliyi və öz şəxsiyyətini inkişaf etdirməsi önəmlidir. Ölmüş bir yaxının adını daşımaq, uşağın öz şəxsi xüsusiyyətlərini və müstəqil kimliyini inkişaf etdirməsinə mane ola bilər. Bu səbəbdən, ailənin bu qərarı verərkən uşağın fərdi inkişafını və ehtiyaclarını nəzərə alması vacibdir. Uşağa ölmüş bir yaxının adını vermək, həm müsbət, həm də mənfi təsirlər yarada biləcək mürəkkəb bir qərardır. Ailələr bu qərarı verərkən diqqətli olmalı və uşağın psixoloji sağlamlığı, şəxsiyyət inkişafı və fərdi ehtiyaclarını ön planda tutmalıdır. Ailə içindəki emosional dinamiklər və mədəni dəyərlər də nəzərə alınaraq, ən uyğun qərar verilməlidir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Makronun satın aldığı liderlik



Fransada siyasi böhran getdikcə dərinləşir. Kreslosunda güclə dayanan ölkə rəhbəri problemi həll etməyə çalışsa da, ifrat solçu və ifrat sağçı qüvvələrin prezident Makronun namizədlərinə etimadsızlığı stabil hökumətin yaradılmasına maneçilik törədir. Çox güman ki, tərəflər gələn ilin yeni büdcəsi ilə bağlı razılığa gələ bilməyəcəklər. Lakin bu halda fransızların rifahı naminə siyasətçilər kompromis texniki büdcəyə, bəlkə də mərkəzçi baş nazirə - texnokrata razılaşmalı olacaqlar. Ölkədə hökumətin yoxluğu prezidentin fəaliyyətinə də ciddi təsir göstərib və seçkilərin keçirilməsini gündəmə gətirib, daha doğrusu onu qaçılmaz edib. Milli Cəbhə Partiyasının parlament fraksiyasının lideri Marin Le Pen Fransa prezidentliyinə ən populyar namizəddir. Bunu Fransa İctimai Rəy İnstitutunun (İfop) keçirdiyi sorğunun nəticələri sübut edir. Le Pen prezidentliyə digər iki ehtimal namizədi rahatlıqla qabaqlayır. Birinci turda onun rəqibi 20 faiz səsə arxalana bilən keçmiş baş nazir Qabriel Attal olarsa, respondentlərin 38%-i ona səs verməyə hazırdır. Əgər Le Penin rəqibi tədqiqat iştirakçılarının 26%-nin dəstəkləməyə hazır olduğu keçmiş hökumət başçısı Eduard Filippdirsə, respondentlərin 35%-i Milli Cəbhə fraksiyasının liderinə səs verəcək.



Paris prokurorluğunun onun 2004-2017-ci illərdə üzvü olduğu Avropa Parlamentində saxta köməkçilərin işə götürülməsi ilə bağlı məhkəmə prosesi çərçivəsində onun beş il müddətinə hökumətə seçilməsinə qadağa qoyulmasını tələb etməsi Le Penin populyarlığına təsir göstərməyib. Məhkəmə bu iş üzrə 2025-ci ilin mart ayının sonunda qərar verəcək.

## Makron çıxış yollarını axtarır

Parlament partiyalarının liderləri baş nazir postuna potensial namizədləri müzakirə etmək üçün Makronla görüşüblər. Ölkə başçısı istefa verən Mişel Barnierin yerinə kimin keçəcəyinə qərar verməlidir. Müxtəlif siyasi spektrlərin nümayəndələri ilə görüş Beşinci Respublika Prezidentinə çətin seçimdə kömək etməli idi. Bununla belə, namizədin təsdiqlənəcəyi fakt deyil, nəinki onun vəzifədə uzun müddət qalması. Məsələ burasındadır ki, nə Milli Mitinqin faktiki lideri Marin Le Pen, nə də ifrat solçu "Fəth olunmamış Fransa"nın nümayəndələri Makronla əlaqə saxlamayıblar.

Makronun "Fəth edilməmiş Fransa"nın bir hissəsi olmayan solçulara olan ümidi çox güman ki, özünü doğrultmayacaq. Baş nazirliyə namizəd yəqin ki, vəzifəyə keçəcək, çünki bunun əleyhinə səs vermək Milli Cəbhənin planlarına daxil deyil. Lakin sonra Barnierlə baş verən hekayənin təkrarlanması tamamilə mümkündür. Vəziyyəti həll etmək cəhdində prezident ifrat tədbirlərə gedərək Konstitusiyanın 16-cı maddəsindən istifadə edərək fövqəladə vəziyyət elan edə bilər. Ancaq belə bir addım vəziyyətdən çıxış yolu deyil. Fakt budur ki, siyasi böhrana baxmayaraq, ən azı texniki büdcə qəbul ediləcək. Əks halda vəziyyət tamamilə fəlakətli olacaq. Axı maaşlar verilməli, sosial sahə fəaliyyət göstərməlidir. Başqa bir şey odur ki, populist qüvvələr böyük büdcə kəsiri ilə belə bütün bunların eyni səviyyədə işləməsini istəyirdilər. Amma bu, maliyyə baxımından mümkün deyil. Makron siyasi döyüşlərə çox da qarışmayan və ya mötədil mərkəzçi bir baş nazir təyin etməyi düşünür. Potensial namizədlər arasında 73 yaşlı Fransua Bayru da var. O, təcrübəli mərkəzçi funksionerdir, lakin onun qocalması çətin ki, böyük siyasi perspektivlərə malik olsun. Nazirlər Kabineti onun kimi radikal baxışları ilə seçilməyən şəxslərdən yaradıla bilərdi. Ümumilikdə siyasi sabitliyə nail olmaq ən azı gələn yaya qədər çətin olacaq, Makron yeni parlament seçkiləri təyin edə bilər.

## Sülhməramlı Makron

Fransa prezidenti Emmanuel Makron Rusiya-Ukrayna münaqişəsinin sülh yolu ilə həllinə hazırlıq prosesində fəal iştirak edir. O, artıq ABŞ-ın gələcək prezidenti Donald Tramp və ukraynalı həmkarı Vladimir Zelenski arasında görüş təşkil edib və indi o, bu ölkənin rəhbərliyi ilə Ukrayna ərazisində bir hissəsi kimi yerləşdiriləcək sülhməramlı missiyanın konturlarını müzakirə etmək, Kiyevə təhlükəsizlik təminatının verilməsi üçün Polşaya gedir. Beləliklə, Makron Trampın Ağ Evə gəlişinə əvvəlcədən hazırlaşmağa və sülh danışıqları zamanı Fransanın əsas Avropa oyunçusu rolunu təmin etməyə qərar verdi. Emmanuel Makron indi növbəti kəskin daxili siyasi böhrandan keçir, lakin bu, onun beynəlxalq məsələlərdə iştirak etmək üçün vaxt tapmasına mane olmur. Belə ki, dekabrın 12-də Fransa prezidenti hökumətin bir müddət əvvəl istefa verdiyi Parisi tərk edərək Polşaya gedəcək. Fransa lideri Varşavaya konkret məqsədlə - Ukrayna münaqişəsinin həllini müzakirə etmək üçün kurs təyin edib.

Müsyö Makronun belə bir səfərə ehtiyacı dekabrın 7-də Parisdə Ukrayna prezidenti Vladimir Zelenski ilə döyüşləri tez bir zamanda dayandırmağa söz verən Ağ Evin gələcək rəhbəri Donald Tramp arasında görüş təşkil etməyi bacardıqdan sonra yaranıb. Dekabrın 11-də Reuters Fransa paytaxtında üçtərəfli danışıqların təfərrüatlarını dərc edib. Materialda iddia olunur ki, Tramp konkret məlumat vermədən Makron və Zelenskiyə dərhal atəşkəs və dinc dialoqun başlanmasını istədiyini deyib. Fransa və Ukrayna prezidentləri isə amerikalı həmkarına təhlükəsizlik zəmanətlərinin verilməsinin zəruriliyini çatdırmağa çalışıblar. Reuters mənbələrindən biri Emmanuel Makron və Vladimir Zelenskinin Donald Trampa vəziyyətlə bağlı baxışlarını izah etməkdə "eyni mövqedə" olduqlarını, lakin "onu küncə sıxışdırmadıqlarını" söyləyib.



Bu və ya digər şəkildə, Qərb mediasının yazdığı kimi, həm Avropa paytaxtlarında, həm də Kiyevdə 2025-ci il yanvarın 20-də keçiriləcək inauqurasiyadan sonra respublikaçının tərəfləri atəşi dayandırmağa məcbur etməyə çalışacağı ilə barışıblar. Bu planın konkret olaraq necə olacağı hələlik məlum deyil. Bununla belə, Respublikaçıların nəzərdən keçirdiyi bütün ssenarilər ən azı cəbhə xəttində hərbi əməliyyatların dondurulmasını nəzərdə tutur. Eyni zamanda, Avropanın bu prosesdə hansı rola malik olacağı bəlli deyil. Donald Tramp avropalı müttəfiqlərinə Ukraynaya yardım üçün kifayət qədər maliyyə yardımı olmadığını iddia edib. Lakin münaqişəni "çox tez" necə həll edəcəyi barədə danışmayıb. Bütün bunların fonunda prezidentliyinin lap əvvəlindən Fransanı Avropanın lideri kimi təqdim etməyə çalışan Emmanuel Makron Trampın Ağ Evə rəsmən daxil olmasını gözləməyərək liderlik rolunun indidən Parisə verilməsini istəyir. Qərb mediasının qeyd etdiyi kimi, Fransa liderinin Tramp və Zelenski arasında danışıqları təşkil etməkdə məqsədi kiçik diplomatik qələbə qazanmaqdır. Makron Ukrayna üçün təhlükəsizlik zəmanətlərinin təşkili və təşviqi ilə məşğul olmaq qərarına gəlib ki, bu, çox güman ki, onun ərazisində Qərbin hansısa hərbi mövcudluğunu nəzərdə tutur. Ona görə də Makron Donald Trampın təşəbbüsü ilə bağlanmış mümkün sülh sazişi çərçivəsində Ukrayna ərazisində yerləşdiriləcək Avropa sülhməramlı missiyası planını müzakirə etmək üçün Varşavaya gedir.

Fransa prezidenti Polşanı belə bir layihənin əsas oyunçularından biri kimi görür. 2022-ci ilə qədər Yens Stoltenberqin rəhbərliyi altında çalışmış NATO baş katibinin keçmiş köməkçisi Kamil Qran Polşa nəşrinə deyib ki, Makron Moskva və Vaşinqton arasında aparılan danışıqlardan kənarda Avropanı tərk etməyin mümkünsüzlüyü ilə bağlı tezisini cənab Trampa çatdırıb. Qrandın sözlərinə görə, cəbhə xəttində hərbi əməliyyatların dondurulması və Kiyevin 1991-ci il sərhədlərinə hərbi yolla nəzarəti geri qaytarmaqdan imtina etməsi halında Ukraynaya təhlükəsizlik zəmanətinin verilməsinin üç ssenarisi var.

Birincisi, 1955-ci ildə Almaniyada olduğu kimi, Ukraynanın nəzarət etdiyi sərhədlər daxilində NATO-ya qəbul ediləcəyi "Almaniya"dır. Düzdür, demokrat Co Baydenin dövründə ABŞ bunun əleyhinə idi və respublikaçı Donald Trampın dövründə belə dönüş tamamilə qeyri-real görünür. Bundan başqa, Almaniya belə bir planı dəstəkləmir.

İkinci ssenari, sülh və ya barışıq əldə edildikdən sonra Qərbin Ukraynanı kütləvi şəkildə silahla təchiz etməyə davam etdiyi "İsrail" modelidir. Bununla belə, bu planın əhəmiyyətli çatışmazlığı var, çünki nə ABŞ, nə də onun Avropalı müttəfiqləri müəyyən bir ölkədə hakimiyyət dəyişikliyi halında fasiləsiz təchizata zəmanət verə bilməz.

Üçüncüsü, münaqişə tərəfləri arasında hərbisizləşdirilmiş zonanın yaradılmasını nəzərdə tutan "Koreya" ssenarisidir. Əgər bu həyata keçərsə, yəqin ki, Emmanuel Makronun Varşavaya getdiyini müzakirə etmək üçün bu zonada sülhməramlı missiya yerləşdirilə bilər. Kamil Qrandın sözlərinə görə, Fransa liderinin Polşaya diqqəti onun coğrafi mövqeyi və bütün NATO ölkələri arasında ÜDM-ə nisbətdə müdafiə xərclərinə görə lider olan respublikanın artan hərbi potensialı ilə bağlıdır.

Eyni zamanda, Emmanuel Makronun sülhməramlı missiya ideyası indi kifayət qədər genişmiqyaslı və bahalı görünür. Belə bir missiya üçün beş briqadadan və ya təxminən 40 min nəfərdən ibarət qüvvə tələb olunacaq. Polşa bir briqadaya komandanlıq edə bilər, lakin bundan əlavə, Makronun başqa köməkçilərə ehtiyacı olacaq. Qeyd olunur ki, Fransa lideri artıq Böyük Britaniyanın baş naziri Key Starmer və Şimali Avropa və Baltikyanı ölkələrin nümayəndələri ilə öz ideyalarını müzakirə edib. Maraqlıdır ki, əvvəllər Kiyevin təhlükəsizliyin təminatı olaraq yalnız NATO-ya qoşulmağa razı olduğunu bildirən Vladimir Zelenski artıq etiraf edib ki, Ukrayna sadəcə olaraq öz ərazisində Qərb qoşunlarını yerləşdirməklə kifayətlənə bilər. Zelenski Xristian Demokrat İttifaqının (CDU) lideri və Almaniya kanslerliyinə namizəd Fridrix Merzlə Kiyevdə keçirilən görüşdə deyib: "Mən sizə səmimi deyirəm: biz Emmanuelin mövqeyi üzərində düşünüb işləyə bilərik".

Bu və ya digər şəkildə Fransa prezidentinin səylərinin uğur qazanıb-qazanmayacağı açıq sualdır. Birincisi, Donald Tramp hələ də həll planını təqdim etməyib və hətta Emmanuel Makron və Vladimir Zelenski ilə görüşdə də mümkün strategiyasının təfərrüatlarını araşdırmayıb. İkincisi, NATO qüvvələrinin bu ölkədə potensial mövcudluğunun genişmiqyaslı münaqişənin rəsmi səbəblərindən birinə çevrildiyini nəzərə alsaq, Rusiyanın Qərb qoşunlarının Ukrayna ərazisinə yerləşdirilməsi ideyasına necə reaksiya verəcəyi bəlli deyil.

Bundan əlavə, Moskva təkid edir ki, onun nəzərdən keçirməyə hazır olduğu yeganə nizamlanma planı Rusiya prezidentinin əvvəllər elan etdiyi hərbi əməliyyatların dayandırılması şərtləridir. Və "Tramp planı" ilə bağlı mediada yayılan məlumatlara əsasən, Rusiya indi ABŞ-ın gələcək prezidentinin mümkün təkliflərinin heç olmasa bəzilərini qəbuledilməz hesab edir.

**V.VƏLİYEV**

# Mənəviyyat məsələsi: nəyi qorumalı?






***Cəmiyyətin formalaşmasında maddi ünsürlər qədər milli-mənəvi dəyərlər də önəmlidir, hətta ikinci birincidən daha vacibdir. Sivilizasiyaları yaradan insanlardır. İnsan həm maddi, həm də mənəvi xüsusiyyətləri olan varlıqdır. Fiziki xüsusiyyətlərlə yanaşı, mənəvi xüsusiyyətlərimiz bizi insan edir. Maddi şeylərə önəm verən və mənəviyyatını unudan bir insanın bu dünyada xoşbəxt bir həyat sürməsi mümkün deyilsə, maddi dəyərlərə önəm verildiyi və mənəviyyatın unudulduğu cəmiyyətlərin sivilizasiyanın yaşaması da eyni dərəcədə mümkün deyil, unudulur.***

Bütün dünyada zorakılıq və terror aktlarının, xaosun, qətllərin baş verdiyi dövrdə yaşayırıq. Bu mənzərə dünyada yaşayan bütün insanların həyatına maddi və mənəci zərər verir. Bütün ölkələrdə pozulmuş cəmiyyətlərin əvvəlki halına qaytarılması üçün proqramlar işlənir, araşdırılmalar aparılır. İndi dünya əmindir ki, problemlərin öhdəsindən gəlməyin yolu milli-mənəvi dəyərləri qorumaqdan keçir. Əslində bu gün bir çox cəmiyyətlər milli-mənəvi dəyərlərinə qayıtmaqla qurtuluşun mümkün olduğunu qəbul edib. Milli-mənəvi dəyərlər bir milləti millət edən ilkin dəyərlərdir. Vətən, bayraq, mədəniyyət, dil, himn və sairə kimi milli dəyərlərimiz, milli adətlərimiz bizi kökümüzdən qopmağa qoymayan elementlərdir.

Həmçinin, din də bizim mənəvi dəyərlərimizi ifadə edir. Din bu gün bütün cəmiyyətlərin əsas ehtiyacıdır. İnsanlar bu qədər mənəvi böhranın içərisində ikən işıq, nicat yolu axtarırlar, mənəvi dəstəyi dindən alırlar. Həqiqi ruhi bilikləri paylayan din vasitəsi ilə insanlar güvən və cəsarət qazanırlar, səbirli və qətiyyətli olmağı öyrənirlər, həyatın çətinliklərinə müqavimət göstərə bilirlər. Din mərhəmət öyrədir, sevgi, hörmət, ədalət aşılayır. Bu hisslərdən uzaq olan insan özünü boşluqda hiss edir. Tarixin heç bir dövründə dindən, mənəviyyatdan uzaqlaşmış cəmiyyətlər uzun müddətli var ola bilməyiblər.

Həqiqi din insanları həyata hazırlayır, bədbəxt hadisələr zamanı, ölümlər və itkilər olanda təsəlli verir. Həqiqi ruhi biliyi öyrənən insan dünyada mövcud olmağın mənasını dərk edir, maddi asılılıqlardan uzaq olur. Onu yoxdan yaradanı tanıyır, sevir. Mənəviyyatı möhkəmlənən insan həyatın təkcə maddi dünyadan ibarət olmadığını bilir və dünyada itirdiyi maddi şeylərə heyifsilənmir.

Təhsilin məqsədlərindən biri də ümumi cəmiyyət tərəfindən qəbul edilmiş dəyərləri gələcək nəsillərə ötürmək, bu dəyərləri mənimsəmələrini təmin etməkdir. Məktəblərdə "mənəvi dəyərlər" təhsili verilməlidir. Milli təhsil sistemində dəyərlərə, adətlərə köklənmiş öyrətmə metoduna üstünlük verilməlidir. Uşaqlara lap körpə yaşdan dəyərin nə olduğunu, milliliyin nə vəd etdiyini, kimliymizin hansı əhəmiyyəti daşıdığını aşılamaq lazımdır. Əks halda yad və təhlükəli təsirlərə məruz qalmağımız qaçılmazdır. Dünyanın sosial-iqtisadi strukturunda baş verən sürətli dəyişikliklər bütün cəmiyyətlərə təsir edir. Millətlərin, xalqların, ölkələrin milli dəyərləri yad təsirdən zərər görə, dəyişə, transformasiyaya uğraya bilər. Biz öz mədəniyyətimizi qorumaqla, dilimizi, dinimizi, adətlərimizi qorumaqla, əslində, kimliyimizi, kökümüzü qoruyuruq.

Əfsuslar olsun ki, indi biz uşaqlarımızı milli düşüncədə, milli ruhda yetişdirə bilmirik. Onların milli kimliyini, vətənpərvərlik ideallarını düşünməyə vaxtı olmur. Fasiləsiz olaraq imtahana hazırlaşan, durmadan oxuyan, işsizlik girdabında boğulan gənclik milli-mənəvi məsələlərə vaxt ayıra bilmir. Biz hər baxımdan savadlı, yenilikçi, ixtiraçı gənclik yetişdirə bilərik, savadlı kadrlarımız ola bilər, amma mənəvi və milli dəyərlərə malik nəsil yetişdirə bilməyimiz sual altındadır. Gənclər, adətən, problemlərdən xəbərdar olur, maraqlanır və araşdırma aparır, yaradıcı olur və təxəyyülünü inkişaf etdirir, həll yolları fikirləşir. Daha kreativdirlər, daha dinamikdirlər. Dayanmırlar, yorulmurlar, daim axtarışdadırlar. Təşəbbüskar, dəyişikliklərə və inkişafa açıq olan, eyni zamanda dəyərlərinə, milli kimliyinə sadiq olan gənclik yetişdirmək bizim dövlətə və cəmiyyətə ən böyük xidmətimiz olar.

Dini, milli-mənəvi dəyərlər bizim hər birimiz üçün qiymətli və müqəddəs amillərdir. Xalqımız əsrlər boyu qoruduğu, tarixin bəzi dönəmlərindən talanaraq, məhv edilərək əlindən alınmağa çalışılan adətləri bu günədək gətirib çıxara bilib, bu da milli özünüdərkin formalaşmasına böyük kömək edib. Bu vəziyyəti qoruyub saxlamaqla yanaşı inkişafını da təmin etmək lazımdır. Dəyərlərin gələcək nəsillərə ötürülməsi, gənc nəslin milli, mənəvi tərbiyəsi xalqımızın, dövlətimizin var ola bilməsi üçün şərtdir.

***Lalə Mehralı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*

# Yol qəzalarının əsas səbəbi nədir?




*Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədovun SİA-ya açıqlamasını təqdim edirik:*

***- Bir çox dünya dövlətlərində qəza baş verən zaman araşdırma aparılır, günahkar kimdirsə, həmin şəxs ya həbs olunur, ya da töhmət edilir, cərimələr tətbiq olunur. Amma Azərbaycanda sürücü bilərəkdən və bilməyərəkdən qəza törədərkən bütün günah sürücünün üzərində qalır. Niyə görə Azərbaycanda qəza zamanı günahkar ancaq sürücü olur?***

- Yol hərəkəti qaydalarının pozulması ilə nəticələnən hadisələr birbaşa iki tərəfin qarşılıqlı təması ilə baş verir. Ola bilsin ki, sürücü sürət həddini aşa bilər. Amma siz deyən hallar intihar hallarıdır. İntihar hallarına bənzər hadisələr zamanı cinayət işi baxımından prokurorluqda onlara cinayət işi açılır. Dünyanın istənilən ölkəsində hadisə araşdırılır. Hadisəyə birmənalı baxmaq düzgün deyil. Çünki hadisə nəticəsində bir neçə şəxs həyatını itiribsə, bu proses yenə də araşdırma predmetidir. Desək ki, Azərbaycanda sürücü günahsız yerə həbs olunub, yaxud da, haqqında müəyyən qərar qəbul olunub. Bunu düzgün hesab etməzdim. Çünki bütün hadisələr araşdırılır. Elə vaxt olur ki, hətta apellyasiyaya şikayət edilə bilər. Bu, bir şəxsin tabeliyində olan hadisə deyil. Ola bilər ki, yol qaranlıq olub, nəqliyyat hadisəsi baş verib. Kiminsə üzərinə avtomobil sürülüb qəza baş veribsə, bu, təbii ki, cinayət işidir.

***- Nəqliyyatla bağlı dünya praktikasından yetərincə yararlana bilirik? Hansı problemlər qalır və bunun həlli gözlənilir?***

- Azərbaycanda 2000-ci illərin sonlarında insanların yüksək dərəcədə avtomobilləşməsi getdi. Bu, iqtisadi uğurun nəticəsi idi. Amma biz müəyyən infrastruktur baxımından buna hazır deyildik. Misal üçün, Bakı şəhərinin müəyyən əraziləri var ki, orada hər hansı infrastrukturu yeniləmək, yaxud yolu genişləndirmək, piyada keçidi salmaq çətindir. Ona görə də, yalnız intellektual idarəetmə mərkəzlərinin, buna bənzər qurumların birbiri ilə koordinasiyalı iş fəaliyyəti nəticəsində bu hadisələrin qarşısını almaq olar. Piyada məsuliyyətsizliyindən misal çəkmək istəyirəm. Bu yaxınlarda bir hadisə baş verdi. Piyada keçidin altından keçərkən qəza baş verdi, hadisə baş verdiyi halda yenə də digər piyadalar həmin yolu keçməkdə davam edirdilər. Bu, insanların həyatlarına laqeydliyindən irəli gəlir. Ona görə də, burada maarifləndirmə, informasiya bolluğunun olması mühüm rol oynayır. Düzdür, inzibati tənbeh də rol oynaya bilər. Amma o cərimənin ödənilməsinə qədərdir. Cərimə ödənildikdən sonra yenə də eyni hallar baş verə bilir. Bu da insan psixologiyasından irəli gəlir. Onun üçün qanun-qaydaları dərk edərək riayət etməliyik. Təklif kimi səsləndirmək istəyirəm ki, yol hərəkəti qaydaları məktəblərdə tədris olunsun. Belə olan halda qaydaları bilən şəxs 18 yaşında nəzəri biliklərə malik sürücü olacaq.

***- Bizim ən yaralı yerimiz tıxac və sıxlıqdır. Niyə bu məsələ hələ də öz həllini tapa bilmir?***

- Qeyd etdiyim kimi, ölkəmizdə avtomobilləşmə getdi. Bu, özü ilə bərabər müəyyən problemlər gətirdi. Tıxac o zaman baş verir ki, yolun N kəsiyindən keçən nəqliyyat vasitələrinin sayı durmadan artır, sonda dayanır. Hələ də həll tapmamasına səbəb kimi avtomobilləşmənin səviyyəsinin yüksək olmasını göstərə bilərəm. Buna paralel olaraq yeni yolların inşası da gedir. Digər yolları daha da genişləndirə bilmirik, yolun sol və sağ tərəfində binalar var. Ona görə, infrastruktura qurmaq çətindir. Biz müəyyən dərəcədə tənzimləməni keçirə bilsək, eyni əhəmiyyətə malik kəsişmələrdə hərəkətin idarə edilməsi ilə nəticələnə bilər. Lakin bu prosesi tamamilə dayandıra da bilmərik. Vətəndaşa "avtomobil alma" demək olmaz. İnsanların yeni avtomobil və ev alması iqtisadi uğurdur.

***- Avtobus zolaqları haqqında nə düşünürsünüz? Sürücülər və piyadalar niyə çaşqınlıq içindədir? Bu da qəzaların artmasına səbəb olur. Avtobus və velosiped zolaqları düzgün yerlərdə çəkilib?***

- Velosiped zolaqlarının ilk çəkildiyi vaxtlar insanlar bunu birmənalı qarşılamırdılar. Tədricən buna öyrəşdik. Avtobusun içindəki sərnişinlər digər avtomobillərin dayandığını görüb bundan məmnun qalırlar. Bu proseslər vaxt aparır, yoluna düşəcək. Zaman lazımdır. Elə bil dünyəvi prosesdir ki, biz də bu dünyanın parçasıyıq. Dünyanın iri şəhərlərində tətbiq olunan yeniliklər bizə də gəlib çatır. Bu qaydalara alışmağımız vaxt aparır. Elə ərazilər var ki, avtobus zolağında, kəsişmələrdə qırıq xətlər qeyd edilib. Buna rəğmən həyətlərə giriş-çıxış yerlərində avtobus zolağı çəkildiyi üçün insanlar bu ərazilərə daxil ola bilmirlər.

***- Sürücülər şikayət edirlər ki, sərnişini düşürə bilmirik. Yolun ortasında düşürürük, bir cərimə, avtobus zolağında başqa cərimə yazılır. Bəs nə edək?***

- Bu proseslər nizamlanma mərhələsindədir. Söhbət taksilərin avtobus zolağına daxil olmasından gedir. Avtobus zolaqları çəkilən zaman belə bir məsələ gündəmdə idi ki, taksilərin avtobus zolaqlarından birgə istifadə etməsi ilə bağlı qərar qəbul ediləcək. Sonradan durğunluq vəziyyətində qaldı. Sosial şəbəkələrdə görürəm ki, bu məsələ hələ də gündəmdədir. Ona görə də, bu kimi hallar növbəti mərhələlərdə olacaqdır. Sərnişinin sol zolaqda mindirilməsi taksi dayanacaqlarının olmaması ilə bağlıdır. Ona görə də, taksilər üçün əlavə ərazilərin ayrılması, pulsuz, ödənişli dayanacaqların tətbiqi mərhələli şəkildə olacaq. Burada əsas amil yerdir. Buna ərazi də imkan verməlidir. Müəyyən qurumlar vasitəsilə razılaşdırılaraq həllini tapan məsələdir.

***Söylü Ağazadə***

SON SƏHİFƏ
SƏS
13 dekabr
2024-cü il

# Dünya üçün yeni PANDEMİYA TƏHLÜKƏSİ!

*ÜST rəhbərindən dünyanı qorxudan BƏYANAT*



**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus 2024-cü ildə səhiyyə sahəsində baş verən qlobal hadisələr və gələcək perspektivlər barədə danışıb. O, səhiyyə sahəsində əldə olunan uğurlardan bəhs edərək, 2024-cü ildə doqquz ölkənin bəzi xəstəliklərdən tamamilə azad olunduğunu, Afrikanın 17 ölkəsinə 12 milyondan çox malyariya peyvəndinin çatdırıldığını və 150 ölkədə siqaret istifadəsinin azaldığını vurğulayıb. Bildirib ki, bu nailiyyətlər səhiyyə siyasətinin və beynəlxalq əməkdaşlığın əhəmiyyətini bir daha nümayiş etdirir.**

ÜST rəhbəri qeyd edib ki, Dünya yeni pandemiyaya həm hazırdır, həm də hazır deyil. T.A.Qebreyesus yeni pandemiyanın ortaya çıxması ehtimalının yüksək olduğunu və dünyanın bu təhlükəyə tam hazır olmadığını vurğulayıb. Onun sözlərinə görə, COVID-19 pandemiyasından öyrənilən dərslərə baxmayaraq, bəzi zəifliklər hələ də mövcuddur. SİTAT: "Bu zəifliklərin aradan qaldırılması məqsədilə Dünya Bankı və ÜST-ün Pandemiya Fondu yaradılıb. Bununla yanaşı, yerli dərman və peyvənd istehsalına üstünlük verilməsi kimi təşəbbüslər həyata keçirilir. Lakin dünya əhalisinin yarısının əsas səhiyyə xidmətlərinə çıxışı yoxdur və 2 milyard insan səhiyyə xərclərinə görə maliyyə çətinliyi yaşayır. Qlobal səhiyyə sistemində davamlı islahatlar zəruridir".

***Mətləb Salahov***

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## İlon Maskın sərvəti 400 milyard dolları ötdü - dünya tarixində bir ilk!



***Amerikalı sahibkar İlon Mask tarixdə sərvəti 400 milyard dolları keçən ilk şəxs olub. Bu barədə "Blumberg" məlumat yayıb. "İlon Mask sərvəti 400 milyard dollara çatan ilk şəxs olub", - nəşr yazıb.***

Qeyd edilir ki, Maskın sərvətinin artmasının əsas səbəbi onun şəxsi kosmik şirkəti SpeysX-in səhmlərinin insayder satışı olub. Bundan sonra onun kapitalı dərhal 50 milyard dollar artaraq, 439,2 milyard dollara çatıb.



## TƏBRİK EDİRİK!

Hörmətli İlqar bəy!
16 dekabr - doğum gününüzü Rüfət Fərzəlibəy, qızınız Mayisə müəllimə və ailəniz təbrik edir, sizə uzun ömür, can sağlığı arzulayırlar. Rüfətdən akrostik şeir hədiyyəniz də var:

İ-nsan kimi gözəl, dost kimi özəl,
L-ayiqli bir ata, hər ömrə bədəl.
Q-əhrəman oğlunuz bir qürur üzə
A-zərbaycan üçün həm fəxr bizə.
R-üfətdən bu şeir də hədiyyə sizə.

## Ərəblərdən Ronaldoya 155 min avroluq bah alı "oyuncaq" hədiyyəsi..



**Səudiyyə Ərəbistanının "Əl Nəsr" futbol klubu, öz futbolçularını növbəti bahalı hədiyyələrlə sevindirib. Ərəbistan klubu futbolçulara 155 min avro qiymıəti olan BMW XM avtomobilləri hədiyyə ediblər.**

Səudiyyə Ərəbistanı Pro Liqasının geyimi BMW məhsullarının Yaxın Şərqdəki rəsmi idxalçısı Mohamed Yousuf Naghi Motors ilə işgüzar münasibətə malikdir. Bu gəlirli müqavilə 2027-ci ilə qədər qüvvədə olacaq və alman istehsalçıları Al-Nassr-ın rəsmi avtomobil tərəfdaşı olacaq. Portuqaliyalı Kriştiano Ronaldo, seneqallı Sadio Mane və digər futbolçular avtomobillərinin yanında foto çəkdiriblər.

## BAŞSAĞLIĞI

Əliş Əhmədov, Ənvər Hüseynov, Yavər Nuriyev, Məmmədhəsən Məmmədov Qəmbər Hümbətova qardaşı

**Xeyrulla Hümbətovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700